**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**"Dövlət büdcəsində sosial yönümlü xərclərin tənzimlənməsi yolları"**
**mövzusunda**

# MAGİSTR DİSSERTASİYASI

**Qubadzadə Məftun Məhəmməd**

**BAKI – 2019**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**
**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**
**i.ü.f.d.,dos.Əhmədov Fariz Saleh oğlu**
_______________ (imza)
"___" __________ 20__-cu il

**"Dövlət büdcəsində sosial yönümlü xərclərin tənzimlənməsi yolları"**
mövzusunda

**MAGİSTR DİSSERTASİYASI**

**İxtisasın şifri və adı: 060404 "İqtisadiyyat"**
**İxtisaslaşma: Əməyin İqtisadiyyatı**

| | |
|---|---|
| **Magistrant** | **Elmi rəhbər** |
| **Məftun Qubadzadə Məhəmməd** | **i.e.n.,dos.İbrahimov Zöhrab Həsən** |
| **_______________imza** | **________________imza** |
| **Proqram rəhbəri** | **Kafedra müdiri** |
| **i.ü.f.d.,b.m.Hümbətova Suqra İnqilab** | **i.e.d.,prof.Kəlbiyev Yaşar Atakişi** |
| **_______________imza** | **_______________imza** |

**BAKI – 2019**

**Ways of regulating social-oriented expenditures in the state budget**

**Summary**

**The actuality of the subject. Social policy is a policy aimed at raising social welfare across the country. It is known that social policy has been further improved by reforms implemented by state. The development of social sphere also boosts economy of country.**

**The social policy pursued by President Ilham Aliyev and state programs related to this policy are aimed at modernizing country, improving lives of it citizens. Modern social policy is topical.**

**Purpose and Objectives of the Research: The purpose of study is to investigate state's social policy and it social expenditure policy. The purpose of research is to study essence of social policy, role of state budget in social policy, financial support of government's expense policy.**

**Research methods: Comparative analysis of social policies of Republic of Azerbaijan and world countries. From this point of view, analysis, synthesis, comparative analysis methods were used in study.**

**Information basis of Research: The program "Socio-Economic Development of Regions of Azerbaijan (2004-2008)" and other normative-legal acts constitute basis of research base. The President's orders and textbooks were also analyzed.**

**Research Restrictions: I could't find book or magazine about how to conduct social policy in China.**

**Research Findings: The positive results achieved during conduct of state policy constitute analysis of application of state programs.**

**Scientific-practical significance of the results: As a result of research, it has been established that world's leading countries have been analyzing Azerbaijan's social policy. As a result, Azerbaijan's social development is dynamic and priority.**

**Key words: social policy, development, reform.**

# İXTİSARLAR

| | |
|---|---|
| **ABŞ** | Amerika Birləşmiş Ştatları |
| **AR** | Azərbaycan Respublikası |
| **BVF** | Beynəlxalq Valyuta Fondu |

## MÜNDƏRİCAT

**GİRİŞ.....................................................................................................7**

**I Fəsil DÖVLƏTİN SOSİAL YÖNÜMLÜ XƏRCLƏRİNİN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI..........................................................................11**

1.1.Dövlətin sosial yönümlü xərclərinin mahiyyəti və ümumi xarakteristikası......11

1.2. Dövlətin sosial yönümlü xərclərinin tərkibi və əsas istiqamətləri................16

1.3. Sosial siyasətin iqtisadi və hüquqi əsasları.....................................................20

**II Fəsil DÖVLƏTİN SOSİAL YÖNÜMLÜ XƏRCLƏRİNİN MALİYYƏ TƏMİNATININ MƏNBƏLƏRİ VƏ BÜDCƏNİN ROLU...........................29**

2.1.Seçilmiş ölkələrdə sosial yönümlü məsələlərin maliyyələşmə mənbələri........29

2.2. İnkişaf etmiş ölkələrdə sosial yönümlü xərc strategiyalarının müqayisəli təhlili...................................................................................................................37

2.3. Sosial yönümlü inkişafda dövlət büdcəsinin rolu........................................43

**III Fəsil AZƏRBAYCAN RESPUBLİKASINDA SOSİAL YÖNÜMLÜ XƏRCLƏRİN TƏNZİMLƏNMƏSİNDƏ MALİYYƏ TƏMİNATININ ARTIRILMASI YOLLARI..........................................................................49**

3.1.Azərbaycanda sosial yönümlü xərclərin tənzimlənməsində maliyyə təminatının təkmilləşdirilməsi istiqamətləri.........................................................................49

3.2. Sosial yönümlü xərclərin tənzimlənməsində dövlətin həyata keçirdiyi tədbirlər planı.....................................................................................................61

**NƏTİCƏ VƏ TƏKLİFLƏR.........................................................................68**

**İSİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT...........................................................70**

Cədvəllərin siyahısı.............................................................................................73

Şəkillərin siyahısı.................................................................................................73

Qrafiklərin siyahısı...............................................................................................73

# GİRİŞ

**Mövzunun aktuallığı.** Bildiyimiz kimi, dövlət müəyyən sosial və siyasi çərçivədə fəaliyyət göstərir. Dövlətin yürütmüş olduğu siyasət hüquq normalarını da tənzimləyir. Belə ki, dövlət hüquq sisteminin əsasında qurulduğundan burada hüquqi, sosial, siyasi, dini, ictimai və s. məsələlər də xüsusi yer tutur.

Dövlətin yürütdüyü sosial siyasət cəmiyyətin fəaliyyətində mühüm yerlərdən birini tutur. Sosial siyasət insanların həyatında özünü göstərən sosial-iqtisadi məsələlərin tənzimlənməsinə yönəldilən tədbirlərin məcmusudur. Sosial siyasət gəlirdəki bərabərsizliyi, sahibkar və işçi arasında münasibətləri, iqtisadi və sosial rifahın yaxşılaşması, sosial nifaqların aradan qaldırılması və s. kimi məsələləri tənzimləyir.

Bazar iqtisadiyyatı şəraitində sosial siyasət amili ilə insanlar arasında əmlak bərabərsizliyi müəyyən mənada aradan qaldırılır. Əhalinin bütün təbəqələri eyni şərtlər əsasında işləyir və yaşayırlar. Bütün bu prinsiplərin reallaşdırılması sosial siyasət anlayışını izah edir.

Dövlətin büdcədən ayıraraq həyata keçirdiyi sosial yönümlü xərc siyasəti məhz ölkə vətəndaşlarının rifah halını yüksəldir. Dövlətin sosial yönümlü xərc siyasəti sosial strategiyanın başlıca tərkib hissəsidir.

Dövlətin sosial siyasət və sosial yönümlü xərc siyasəti qəbul etdiyi qərar və proqramlarda öz əksini tapır. Bu hüquqi-normativ aktlarda sosial yönümlü xərc siyasətinin əsasını qeyri-neft sektorunun daim inkişaf etdirilməsi əsas məqsəd kimi qarşıya çıxır. Respublikamızda dövlətin sosial siyasətlə bağlı həyata keçirmiş olduğu tədbirlər, atdığı addımlar, yürütdüyü siyasət və icra etdiyi proqramların nəticəsində qeyri-neft sektorunun inkişafı sürətlərnir və ölkəyə qoyulan xarici investisiyaların həcmi artır. Bütün bu məsələlərdə dövlətin sosial siyasətlə bağlı xərclərinin tənzimlənməsi mühüm yer tutur. Elə bu cəhətdən dissertasiya işinin mövzusu aktualdır.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi.** Dövlət büdcəsinin sosial yönümlü xərclərinin tənzimlənməsinin öyrənilməsi sahəsində bir sıra alimlərin, o cümlədən də Z.Qurbanovanın, R.Rəşadın, A.Nuriyevin, Ə.Əsgərovun elmi

əsərlərində və kitablarında kifayət qədər təhlillərə, araşdırmalara rast gəlmək mümkündür. Lakin Azərbaycanda dövlət büdcəsinin sosial yönümlü xərclərinin tənzimlənməsinin mövcud problemlərinin öyrənilməsi kifayət qədər aktual problem olduğundan məsələyə kompleks yanaşılma tələb edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi dövlət büdcəsinin sosial yönümlü xərcləri çərçivəsində tənzimlənməsinin müəyyən edilməsidir. Dissertasiya işinin məqsədinə çatmaq üçün aşağıdakı əsas vəzifələrin icrası zəruridir:

- ✓ Dövlətin sosial yönümlü xərclərinin mahiyyəti və ümumi xarakteristikası araşdırılır;
- ✓ Dövlətin sosial yönümlü xərclərinin tərkibi və əsas istiqamətləri müəyyən edilir;
- ✓ Sosial siyasətin iqtisadi və hüquqi əsasları tədqiq edilir;
- ✓ Seçilmiş ölkələrdə sosial yönümlü məsələlərin maliyyələşmə mənbələri tədqiqata cəlb edilir;
- ✓ İnkişaf etmiş ölkələrdə sosial yönümlü xərc strategiyalarının müqayisəli təhlili verilir;
- ✓ Sosial yönümlü inkişafda dövlət büdcəsinin rolu araşdırılır;
- ✓ Azərbaycanda sosial yönümlü xərclərin tənzimlənməsində maliyyə təminatının təkmilləşdirilməsi istiqamətləri müəyyənləşdirilir;
- ✓ Sosial yönümlü xərclərin tənzimlənməsində dövlətin həyata keçirdiyi tədbirlər planı hazırlanır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqat işinin predmetinin əsasında dövlət büdcəsinin sosial yönümlü xərclərinin tənzimlənməsi problemləri dayanır. Dissertasiya işinin obyekti isə dövlət büdcəsinin sosial yönümlü xərclərinin inkişafının problemləri və təkmilləşdirilməsi istiqamətlərindən ibarətdir.

**Tədqiqatın metodları.** İşin yazılmasında analiz - sintez, həmçinin induksiya - deduksiya metodlarından istifadə olunmuşdur.

**Tədqiqatın informasiya bazası.** İşin informasiya bazasının əsasında Azərbaycan Respublikası Prezidentinin və Nazirlər Kabinetinin iqtisadiyyat, sosial

siaysət və digər aidiyyatı sahələrində qəbul etdikləri fərman, sərəncam, qərar və digər metodiki təlimatlardan ibarət normativ - hüquqi aktlar, elmi fəaliyyətlə məşğul olan alimlərin bu sferada problemlərin təhlili və qiymətləndirilməsinə həsr olunmuş elmi əsərləri (monoqrafiya, elmi məqalə), həmçinin azərbaycan, rus və ingilis dillərində olan digər iqtisadi ədəbiyyatlar (kitab, dərslik və s.) təşkil edir.

**Tədqiqatın məhdudiyyətləri.** Çində sosial siyasətin necə aparılması ilə bağlı kitab və ya jurnal axtarsam da tapa bilmədim. Bu baxımdan tədqiqatın informasiya bazasında yetərsizlik və nəzəri-metodoloji çatışmazlıq ortaya çıxa bilər.

**Nəticələrin elmi-praktiki əhəmiyyəti.** Dövlət büdcəsinin sosial yönümlü xərclərinin tənzimlənməsinin araşdırılması və onun iqtisadi inkişafında rolunun təhlil olunmasıdır.

**Dissertasiya işinin strukturu və həcmi.** Dissertasiya işi giriş, 3 fəsil, nəticə və təkliflərdən, eləcə də sonda tədqiqat işində istifadə olunmuş ədəbiyyatların siyahısından ibarətdir. Ümumilikdə dissertasiya işi 73 səhifə həcmindədir.

Girişdə mövzunun aktuallığı əsaslandırılır, işlənmə vəziyyəti, informasiya bazası, obyekti, predmeti, məqsədi və vəzifələri, elmi və praktiki əhəmiyyəti müəyyən edilir, tədqiqatın metodları xarakterizə olunur.

Dissertasiya işinin I fəslində "Dövlətin sosial yönümlü xərclərinin nəzəri-metodoloji əsasları" tədqiq olunmuş, dövlətin sosial siyasəti və onun iqtisadi, hüquqi əsasları, sosial yönümlü xərclərinin əsas istiqamətləri verilmişdir.

Dissertasiya işinin II fəslində "Dövlətin sosial yönümlü xərclərində maliyyə təminatının mənbələri və büdcənin rolu" araşdırılmış, seçilmiş ölkələrdə dövlətin sosial yönümlü xərclərinin tənzimlənməsi müəyyən olunmuşdur.

Dissertasiya işinin III fəslində isə "Azərbaycan Respublikasında sosial yönümlü xərclərin tənzimlənməsində maliyyə təminatının artırılması yolları " tədqiqata cəlb edilmiş, əvvəlcə dövlətin sosial yönümlü xərcləri bir sıra cədvəl və analizlərlə tədqiq olunmuş, daha sonra dövlətin sosial yönümlü xərclərinin

tənzimlənməsində dövlət siyasətinin əsas istiqamətləri və rolu araşdırılaraq, nəticəyə gəlinmiş, təklif və tövsiyyələr verilmişdir.

# I Fəsil DÖVLƏTİN SOSİAL YÖNÜMLÜ XƏRCLƏRİNİN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI

## 1.1. Dövlətin sosial yönümlü xərclərinin mahiyyəti və ümumi xarakteristikası

Sosial siyasət, ümumiyyətlə, hökumət və ya siyasi şəraitdə, məsələn, rifah dövləti və sosial xidmətlərin öyrənilməsi kimi siyasətdir. Sosial siyasət insan həyatının keyfiyyətinə təsir edən yaşayış şəraitinə təsir edən qaydalar, prinsiplər, qanunvericilik və fəaliyyətlərdən ibarətdir.

Sosial siyasət yenidən bölüşdürmə əsasında müəyyən edilir. Siyasətlərin tənzimləyici və paylayıcı görünüşü cəmiyyətdə yaşayan hər kəsin sosial azadlıqlara və bərabər imkanlara malik olmasını təmin etməyə xidmət edir. Hər bir şəxsin rifahının təmin edilməsi dövlətin və digər təşkilatların əsas məqsədidir.

Hər bir dövlətin sosial baxımdan inkişaf etməsində xərc siyasəti zəruri amil kimi çıxış edir. Dövlətin sosial siyasət üçün ayırdığı məsrəflər məhz büdcə təsnifatına uyğun müəyyən edilir.

Ölkənin başlıca məqsədi sahibkarlığı inkişaf etdirmək, iqtisadi resursları artırmaqdır. Bu da milli iqtisadiyyatın davamlı və dinamik inkişafına gətirib çıxarır. Çağdaş zamanda məhz inkişaf etmiş ölkələr də bu cür siyasət yürüdürlər. Dövlətin sosial siyasətinin əsasını insfrastrukturun yenilənməsi, mövcud baza əsasında yeniliyin baş verməsini sürətləndirmək təşkil edir (Əsgərov Ə.X, 2008).

İnsan amilinə xidmət etmək dövlətin sosial yönümlü xərclərinin mərkəzində dayanır. Sosial infrastrukturun, məsələn, təhsil, səhiyyə, rabitə müəssisələrinin inşa edilməsi, yolların çəkilməsi və s. kimi məsələlər nəzərdə tutulur. İnkişaf etmiş ölkələrin təcrübəsinə dayanaraq, demək olar ki, ötən beş ildə həyata keçirilən islahatlar, atılan addımlar insan amilinin rifahına, mədənilik səviyyəsinin yüksəlməsinə, əxlaqi normaların getdikcə inkişaf etməsinə imkan yaratmışdır.

Sosial yönümlü xərclərdə birinci yeri sahibkarlığın inkişafı ilə bağlı məsələlər tutur. Uzun müddət bu sahədə aparılan islahatlar sosial problem

olan işsizliyin azaldılması, insanların məşğulluğunun tam təmin edilməsi istəyindən irəli gəlmişdir. Birbaşa olaraq demək lazımdır ki, hər bir halda dünya ölkələrini çoxspektrli sosial yönümlü addımlar atmağa təhrik edən amillər çoxdur. Bu amillərin ən başlıcasını ictimai-iqtisadi formasiyalar arası keçidin olması ilə özünü göstərən işsizlikdir.

Milliləşdirmə və özəlləşdirmə məsələsi kimi ölkə vətəndaşlarının işlə təmin edilməsi ilə bağlı məsələlər dövlətin funksiyasına daxil deyildir. Artıq belə bir mühitdə dövlət tam olmasa da əmək ehtiyatlarına, işsizlik indeksinə nəzarət edir.

Nəzərə çatdırmaq labüd hesab olunur ki, əhalinin tələbat və ehtiyacları gün keçdikcə durmadan artır. Bu da sosial tarazlığı pozmağa başlayır. Sosial sferanın, sosial infrastrukturun inkişafı dövlət tərəfindən tam təmin olunmalıdır. Bunun üçün də sosial müdafiə ilə bağlı modernləşməyə müraciət oluna bilər.

Sosial müdafiədə əsas məsələ maliyyə vəsaitinin artırılmasıdır. Respublikamızda təhsil, səhiyyə, elm və mədəniyyət və s. bu kimi məsələlərin inkişafı üçün qəbul edilən proqramlar, imzalanan sərəncamlar dövlət büdcəsindən ayrılan vəsaitlərin dinamik şəkildə artmasına səbəb olur (Atakişiyev M.C, 2012).

Yuxarıda qeyd etdiyim kimi, səhiyyə, təhsil, sosial müdafiə, sosial təminat məsələləri sosial həyatın ayrılmaz tərkib hissələridir. Məlumdur ki, hər bir ölkənin iqtisadiyyatı məhz sosial həyatın komponentləri əsasında inkişaf edir. Birinci növbədə, təhsilin və səhiyyənin inkişafına çalışmaq lazımdır. Gənclərin müxtəlif idman növləri ilə məşğul ola bilməsi imkanları respublikada olduqca geniş və əlverişlidir.

Sosial yönümlü məsrəflər (xərclər) ilə əlaqədar dövlət proqramlarının lazımi formada icra edilməsi ölkə vətəndaşlarının, xüsusilə isə bölgələrimizdə yaşayan insanların işsizlik problemi azalmış, 27 min 500 yeni müəssisə yaradılmış, 766 min 300 iş yeri açılmışdır.

Vətəndaşının yaxşı, şən və yüksək səviyyədə yaşayışını təmin etməyi birinci vəzifə kimi öhdəliyinə götürən inkişaf etmiş ölkələr sosial siyasət ilə əlaqəli fəaliyyətləri məhdud çərçivədə deyil, genişspektrdə icra edirlər. Bunun

üçün layihə və proqramlar hazırlayır, vaxt itirmədən reallaşdırırlar (Ələkbərov Ə.Ə, 2005: s.34).

Hər bir mülki-hüquqi dövlətdə bir sıra prioritetlər müəyyən olunur. Bu prioritetlər içərisində birinci yerdə demək olar ki, təhsil durur. Əlbəttə ki, dövlətlərin iqtisadi, sosial baxımdan inkişaf statistikasında təhsilin öz yeri mövcuddur. Dünya ölkələrinin ümumi inkişaf səviyyəsi hər il qiymətləndirilir. Bu proses son bir neçə ildə aktualdır. Burada qiymətləndirmə meyarı təhsildir. Bu isə təsadüfi xüsusiyyət daşımır.

Müasir dünyada təhsilin vəziyyəti çox mürəkkəb və ziddiyyətlidir. Bir tərəfdən, XX - XXI əsrlərdə təhsil insan fəaliyyətinin ən mühüm sahələrindən birinə çevrilmiş, sosial və elmi - texnoloji nailiyyətlərin əsas mənbəyi olmuş, digər tərəfdən, onun əhatə etdiyi sahələrin genişlənməsi və statusunun dəyişməsi bu sahədə problemlərin kəskin xarakter almasına, təhsil sisteminin böhranına səbəb olmuşdur. Müasir dünya təhsilində funksional təhsil konsepsiyasından şəxsiyyətin inkişafı konsepsiyasına keçid prosesi sürətlənir (Əşrəfova R.S, 2009: s.55).

Məşğulluğun tam təmin olunmasında təhsilin rolu böyükdür. Təhsil, məşğulluğun təmin olunması və səhiyyəyə ayrılan vəsaitlər, xərc siyasətləri hər bir dövlətin inkişafının göstəricisidir. Təhsil strategiyasında təhsil sferasında qazanılan nailiyyətlər, uğurlar qeyd olunur. Bu nailiyyətlərə aşağıdakılar aiddir:

- ❖ Təhsilin normativ və hüquqi əsasının yaxşılaşdırılması;
- ❖ İKT-nin tətbiqi və onun tətbiqinin möhkəmləndirilməsi;
- ❖ İnnovativ təhsil mühitinin yaradılması və s.

2017-ci ildə BMT-nin İnsan İnkişafı Hesabatının 2015-ci illə müqayisəsində aydın olmuşdur ki, Almaniya 3 pillə irəliləmişdir. Nəticədə 169 ölkə arasında VIII yerdən V yerə yüksəlmişdir. Bu da “orta insan inkişafı” qrupundan “yüksək insan inkişafı” qrupuna daxil olmaq demək idi.

Dövlətin iqtisadi baxımdan potensialının qiymətləndirilməsində peşəkar kadrların çoxluğu mühüm yer tutur. Texnologiyanın sürətlə inkişaf etməsi bir çox sahədə tərəqqiyə gətirib çıxarır. Sürətli olaraq inkişaf edən texnologiya özü ilə birlikdə yeni bilik və bacarıqlar gətirir. Onlardan istifadə edə bilmək

bacarığına isə hər bir şəxs nail ola bilmir. Məhz burada önəmli məqam ömür boyu, fasiləsiz təhsilin ön planda olmasıdır. Fasiləsiz təhsil nəticəsində ölkə vətəndaşı sürətli baş verən dəyişiklik və yenilik ilə ayaqlaşa bilir. Elə bu baxımdan Almaniyada təhsilin inkişafına xüsusi formada nəzər yetirilir.

Təhsillə əlaqədar aparılan siyasətin müəyyən olunması dövlətin yerinə yetirmiş olduğu vəzifələr ilə şərtlənir. Bu vəzifə, özündə təkcə bu və ya digər fənnə dair biliklərin cəmini deyil, ümumilikdə təhsilə maraq oyatmağa istiqamətlənmiş belə desək, "həvəsləndirici" dərsliklərin yaradılması ilə təhsilə həvəsin artırılmasıdır (Əliyeva T.Ş, 2007: s.32).

Avropada Boloniya prosesinin inkişafı təhsilin əsasən regionlarda desentralizasiya edildiyi başqa dövlətlərdə (xüsusilə, Amerika Birləşmiş Ştatlarında) təhsil məkanının birləşdirilməsi ilə bağlı məsələlərin qoyuluşunu stimullaşdırdı. Bu, Avropa təhsil sisteminin dünyanm digər ölkələrinin təhsil sistemlərinin, ali və orta təhsil sistemlərinin, eləcə də təşkilatlarm tələblərinin və normaların toqquşmasına səbəb olacaq.

Həyata keçirilmiş tədbirlərin mahiyyəti və konseptual məzmunu iqtisadiyyatın liberallaşdırılması və sərbəst bazar prinsiplərinin dərinləşdirilməsindən ibarət olmuş, nəticədə sahibkarların ümumi daxili məhsuldakı xüsusi çəkisi 85 % - ə çatmışdır.

Dövlət büdcəsindən sahibkarlığın inkişafına ayrılan vəsaitin həcmi ilbəil artırılmış, 7 min investisiya layihəsinə 324 milyon manat kredit verilmişdir. Bu layihələrin 87 % - i, kreditlərin isə 70 % - i regionların payına düşür.

Sahibkarlar yeni iş yerlərinin açılması prosesində, habelə büdcə gəlirlərinin yarıdan çoxunun formalaşmasında yaxından iştirak edirlər (Nəsrullayev F.A, 2015: s.120).

Dövlət və digər qurumlar tərəfindən qüvvədə olan sosial siyasət birbaşa cəmiyyətin rifahına təsir göstərir. Dövlətin rifahı ilə bağlı qaydaları onun sosial siyasətini təhlil etməklə müəyyənləşdirmək olar.

Sosial siyasətin əsas məqsədi cəmiyyətdəki hər kəsin münaqişələrdən uzaq bir şəkildə uyğunlaşmasını təmin etməkdir. Beləliklə, hədəf sosial ədalət, sosial inkişaf, sosial balans, sosial inteqrasiya və sosial sülhü təmin etməkdir.

Sosial ədalət sayəsində cəmiyyətdə hər kəs bərabər risklər qarşısında bərabər hüquqlara sahib olacaqdır. Bu yolla, iqtisadi imkanlardan yaranan bərabərsizliklər və fərqlər aradan qaldırılır. Hər kəsin gəlir, vergilər, əmək haqqı, təhsil və sosial təhlükəsizlik baxımından ədalətli imkanlara malik olmasını təmin edən bütün siyasətlər sosial ədalətin inkişafına kömək edir.

Cəmiyyətdə hər kəs uyğunlaşma və tarazlıqda yaşayırsa sosial balansın təmin edilməsi mümkündür. Buna görə də, sosial fərqliliklərin azaldılması lazımdır. Xüsusilə fərqli bölgələrdə yaşayan fərdlərin imkanları baxımından fərqliliklər və bərabərsizliklər bu tarazlığın və harmoniyanın pisləşməsinə səbəb olur. İnkişaf səviyyəsinə dair fərqləri aradan qaldırmaq və eyni sosial xidmətlərdən hər kəsin faydalanmasını təmin etmək dövlətin əsas məqsədlərindən biridir.

İctimai quruluşda balansın pisləşməsinə gətirib çıxaran amilləri aradan qaldırmağa yönəlmiş siyasətlər vasitəsilə sosial sülh təmin edilir. Xüsusilə kapitalist sistemdə azad bazar tərəfindən yaradılan sosial fərqlər cəmiyyətdə həmrəyliyə maneə ola bilər (Nuriyev  A.X, 2008:s.39).

Sosial inteqrasiya cəmiyyətdə birlik və həmrəyliyə mənfi təsir edən siyasi və iqtisadi amillərin minimuma endirilməsini nəzərdə tutur. Təhsil, mədəniyyət və mənəvi dəyərlər bu mənada ictimai qətiyyəti təsir edən məsələlərdir.

Sosial demokratiyanın məqsədinə nail olmaq, demokratik qaydada fərdlərin əsas hüquq və azadlıqlarını demokratik azadlıqlar çərçivəsində qanuni qaydada müdafiə etmək mümkündür. Demokratiyanın məqsədi insanların işləmək və iştirak etmək hüquqlarını qorumaq üçün əldə edilməlidir.

Ümumi şəkildə qeyd edə bilərik ki, dünyanın qabaqcıl hesab edilən ölkələrində reallaşdırılan sosial islahatların birinci vəzifəsi əhalinin məşğulluğunun təmin olunması, çox sayda iş yerlərinin açılması, aztəminatlı ailələrə pensiya və müavinətlərin verilməsidir.

Sosial islahatların uğurla aparılması bu sahədə yeni, əhalinin sosial müdafiəsində keyfiyyətcə fərqli fikir və yanaşma baxımından müvafiq qanunvericilik aktlarının və dövlət proqramlarının qəbul olunmasını lazımi hala gətirmişdir.

Aparılan tədqiqatlar sübut edir ki, bazar iqtisadiyyatı seçmiş bir çox dövlətdə sosial müdafiə məsələlərinə xüsusi diqqət yetirilmir. İnkişaf etmiş dövlətlərin bir çoxunda təhsil, səhiyyə və başqa sahələr dövlət büdcəsi hesabına maliyyələşmir. Eyni zamanda dövlət əhalinin sosial problemlərini əsas götürərək milyardlarla dollar tələb edən infrastruktur layihələrini dəstəkləmir.

## 1.2. Dövlətin sosial yönümlü xərclərinin tərkibi və əsas istiqamətləri

İqtisadiyyat hər bir ölkənin gələcəyini müəyyənləşdirən amildir. Bu amil ehtiyatlar məhdud sayda olsa belə onlardan maksimum istifadə edərək maksimum mənfəət əldə edə bilməyi tələb edir. Elə bu baxımdan da iqtisadiyyat ictimai-siyasi və bazis institutlardan biridir.

Dövlətin sosial inkişaf yönümlü siyasəti müəyyən tədbirlərin cəmindən ibarətdir. Bu tədbirlərə sosial-iqtisadi şərtlərin tənzimlənməsi daxildir. O hansı məsələlərin aradan qaldırılmasına yönəlmişdir? Bu məsələlər aşağıdakılardır:

- Gəlirin natamam bölünməsi;
- Ziddiyyətlərin yumşaldılması;
- Sosial ixtilafların həll edilməsi və s.

Modern dövrdə sosial siyasət ilə vətəndaşın əmlakında olan qeyri-bərabərlik əhalinin bütün təbəqələri arasında olan sosial prinsipləri reallaşdırır.

Dövlətin həyata keçirmiş olduğu sosial siyasət onun inkişafının bir qolunu təşkil edən regionların inkişafına yönəlmişdir. Bu yöndə gerçəkləşdirilən tədbirlər ardıcıl xüsusiyyətə malikdir. Hər bir ölkədə bölgələrin, kəndlərin, ucaqr yerlərin sosial və iqtisadi inkişafı məsələləri prioritet kimi qəbul olunmuş və qarşıya qoyulmuşdur. Qarşıya qoyulan hər bir məqsədə müvafiq dinamik tədbirlər davamlı şəkildə gerçəkləşdirilir.

Dövlətin sosial siyasət mexanizmi bir sıra kateqoriyalarla da sıx bağlıdır. Belə ki, dövlətin sosial siyasəti və cəmiyyətin iqtisadi baxımdan inkişaf etməsi qarşılıqlı əlaqə əsasında baş verir.

Əvvəla, iqtisadi inkişafın məqsədləri birbaşa və yaxud da dolayı üsullarla sosial siyasət ətrafında birləşir. Təbii ki, iqtisadi fəaliyyət ölkə vətəndaşlarının hər biri üçün səmərəli olan məskunlaşma yerinin yaradılmasına görə gerçəkləşdirilir (Hacızadə H, 2011: s.45).

İkinci kateqoriyanı siyasət nəticəsində bir neçə problemlərin aradan qaldırılması, dövlətin onları reallaşdırması üçün iqtisadi resursların yetərincə olmasıdır.

Üçüncü kateqoriya dövlətin sosial siyasətə və onunla bağlı gerçəkləşdirmiş olduğu məsrəflərə iqtisadi artım amili kimi baxmasıdır.

Tutaq ki, iqtisadi baxımdan inkişaf vətəndaşların həyat rifahının yaxşılaşdırılmasına təsir göstərmirsə, onların əmək fəaliyyəti ilə məşğul olmasına, iş qüvvəsinin keyfiyyətinin artırılmasına diqqət azalır və nəticədə sosial gərginlik meydana çıxır (Nuriyev A.X, 2008:s.54).

Dünyanın qabaqcıl ölkələri ölkə iqtisadiyyatının şaxələndirilməsi üçün önəmli siyasət yürüdürlər. Hər bir ölkədə kosmik sənaye yaradılmışdır. Ölkələrin haradasa iki peyki mövcuddur. Bu peyklər yenilik, texnologiya və sahibkarlıqdır. Tutaq ki, həm yeni texnologiyaların inkişafı, həm də kadr potensialının çatışmazlığı, həm də kosmik sənaye düzgün şəkildə qurularsa, böyük gəlir əldə edilə bilər.

Mövcud olan əmək ehtiyatlarından və təbii-iqtisadi bazadan lazımi səviyyədə istifadə etmək, qeyri-neft sektorunun inkişafının optimallaşdırılması, insanların məşğulluğunun təmin olunması, yoxsulluq indeksinin azaldılması yönündə zəruri addımlar atılır.

Dövlətin yürütdüyü sosial siyasətin xüsusiyyəti və onun məzmunu baş verən sosial proseslərin idarə olunmasına dövlətin müdaxilə etmə göstəricilərindən asılıdır. Bu cəhətdən də dünyanın qabaqcıl ölkələrində dövlətin bütün mövcud olan sosial siyasət növləri iki qrupda birləşdirilir.

Birinci qrupa şərti hesab olunan dövlətin tam şəkildə həyata keçirə bilmədiyi sosial siyasət funksiyaları aid edilir. Bu funksiya miqyasına və əhatə dairəsinin genişliyinə görə məhdud sosial siyasət hesab olunur. Əsasən passiv və kompensasiyalaşdırıcı (bərpaedici) xüsusiyyətə malikdir. Bu cür siyasətin nəzəri əsasları liberal bazar iqtisadi modelinin bazaları fonunda formalaşır. Bu variantın səciyyəvi nümunəsi bazarın amerikan modeli olmasıdır.

İkinci qrup institutsional sosial siyasət adlandırılır. Burada dövlətin yürütdüyü sosail siyasət sosial xidmətlərlə təmin olunmada böyük yer tutur.

Xüsusi institutlar sisteminə başlıca olaraq bölgü siyasəti aid edilir. Bu cür siyasətin formalaşmasında konseptual cəhətdən sosial-demokratik fikir və ya düşüncənin böyük təsiri vardır. Bu hər iki qrupda müəyyən dərəcədə fərqlər mövcuddur. Bu fərqlər bu və ya başqa amillərin birinin olub-olmamasında deyil, onlar arasında olan nisbətlər fərqindən, dövlətin sosial müdaxiləsindən və yenidən bölgü sistemindən asılıdır (Muradov A.N, 2006:s.12).

Bazar iqtisadiyyatı mövcud olan ölkələrdə sosial siyasət iki qrup arasında yerləşir. Skandinaviya ölkələrində sosial siyasət əsasən sosial və demokratik model əsasında gerçəkləşdirilsə də, bu ölkələrdə yürüdülən sosial siyasət əsasən liberal elementlərdən istifadə edir.

Sosial baxımdan inkişaf sosial problemlər əsasında baş verir. Sosial problemlər isə sosial tədbirlər və proqramları yaradır. Elə bu səbəbdən də sosial siyasətin başlıca ideyasını sosial inkişaf, sosial problemlər və sosial islahatlar təşkil edir. Onun var olan islahatlar arasında formalaşması və sosial müdafiənin yollarının öyrənilməsi vacib yerlərdən birini tutur.

Yuxarıda qeyd edilənlərə görə iqtisadi inkişaf meylləri sosial təlabatın ödənilməsində baş verən meyllərlə vəhdətdədir. Bu baxımdan sosial inkişaf nəzəriyyəsinə makroiqtisadi, makrobalanslaşdırma və idarəetmənin komponentləri və əsas göstəricisi kimi baxılır.

Həyata keçirilən sosial tədbirlər mikrosəviyyədə ortaya çıxır. Mikrosəviyyədə tələbatın ödənilməsi imkanları idarəetmə tədbirlərinin məcmusu kimi özünü göstərir. Mikroiqtisadi sosial tədqiqatlar sosial siyasətin reallaşması

obyektləridir. Yəni onlar olmasa sosial siyasət reallaşdırıla bilməz. Mikroiqtisadi sosial araşdırmaların özünəməxsus metodları da vardır. Bu üsullar sosial siyasətin həyata keçirilməsini asanlaşdırır.

Dövlətin sosial siyasətinin hüquqi əsasını müəyyən olunmuş qanunvericilik təşkil edir. Belə ki, hər bir iqtisadi qanunun sosial nəticələri mövcuddur. Sosial siyasətin tənzimlənməsində əsas məsələ onun düzgün qiymətləndirilə bilməsidir. Bu qiymətləndirmə normativ aktlar vasitəsilə baş verir. Sosial sferanın qanunları müəyyən iqtisadi sahələrin həm hüquqi, həm də iqtisadi təminatı sistemində sosial əlaqələrin tənzimlənməsinə istiqamətlənir.

Hər bir sosial sahənin maliyyə əsasları mövcuddur. Bu maliyyə əsasları sosial sferanın daha da təkmilləşməsinə kömək edir. Bu maliyyə əsasları dövlət tərəfindən təsdiq olunur. Sosial inkişafın sosial yönlü xərcləri sosial sahələrə ayrılan vəsaitlə müəyyən edilir (Nəsrullayev F.A, 2015: s.62).

Bazar iqtisadiyyatı olan ölkələrdə vətəndaşların sosial müdafiəsi tədbirləri sistemli olaraq işlənməlidir. Ölkə vətəndaşlarının məşğulluğu və onların gəlir əldə etməsi indeksləşdirmə qanunlarının tələblərinə uyğun olaraq aparılır. Bu cür vəziyyətdə qiymətlər liberallaşdırılır. Sağlam rəqabətin təmin olunması üçün düzgün siyasət aparılmalıdır. Düzgün siyasətdə islahatlar önəmli yer tutur.

Sosial sferada nəzərdə tutulan problemlərin həll olunması və tədbirlərin həyata keçirilməsi qeyri-neft sektorunun davamlı inkişafına, yeni iş yerlərinin və müəssisələrin yaradılmasına, sahibkarlıq fəaliyyətinin daha da yaxşılaş - dırılmasına təkan verir.

Hər bir ölkə iqtisadi sahədə müəyyən müddət keçid dövrü yaşayır. Bu dövrü İran artıq başa vurmuşdur. İranın qeyri-neft sektorunun hərtərəfli inkişafı onun iqtisadiyyatının inkişafına təkan vermişdir. İran iqtisadiyyatının inkişafı məhz dünya təsərrüfat sisteminə səmərəli formada inteqrasiyaya gətirib çıxarmışdır. Bu da problemin birbaşa həlli üçün olduqca zəruridir (Muradov A.N, 2006: s.42)

Ümumi şəkildə desək, əvvəlki mərhələlərlə gələcək mərhələ arasında başlıca fərq ondan ibarətdir ki, tutaq ki, əvvəllər müxtəlif infrastruktur sistem - lərinin genişləndirilməsi və modernləşdirilməsi başlıca vəzifə kimi həll olunurdusa, indi bu işlər davam etdirilməklə yanaşı, əsas diqqət İran iqtisadiyyatı üçün əsas olan istehsal sahələrinin yaranmasına istiqamətləndirilir (Mehbalıyev S.S, İsgəndərov R.K, 2012: s.71).

Dövlətin genişspektrli potensialının getdikcə artması diqqəti xüsusilə cəlb edir. Müvəqqəti olaraq dövlət qayğısını hiss edən regionlar az bir zamanda qeyri-neft sektoru sahələrinin dinamik inkişafı hesabına dövlətin büdcəsini daim artıracaq və bununla da respublikanın iqtisadi qüdrətini kifayət qədər möhkəmləndirəcəklər.

### 1.3. Sosial siyasətin iqtisadi və hüquqi əsasları

XIX əsrin iqtisadi və sosial inkişafı nəticəsində yaranmış sayılan sosial siyasət sənaye inqilabı ilə mənalı olmağa başladı. Sənaye inqilabı ilə iqtisadi əlaqələrin dəyişməsi nəticəsində sosial dəyişikliklər qaçılmaz oldu.Əmək bazarında kapital sahiblərinin dominantlığı ticarətin liberallaşdırılması yolu ilə daha da artdı.

Liberal bazar iqtisadiyyatının yanaşması (Laissez-faire) qəbul edildiyi dövrdə hökumətin müdaxilələri azad bazara mənfi təsir göstərəcəkdir. Müdaxilə olmadan yaradılan bir bazarın xalqı zənginləşdirəcəyi inancı, bir tərəfdən, kapital sahiblərinin zənginləşməsini təmin etdi və digər tərəfdən əmək sektorunun yoxsulluğuna səbəb oldu (Quliyev C.B, 2014: s.33).

İqtisadiyyatda liberal yanaşma nəticəsində cəmiyyətdə iki fərqli bölmə ortaya çıxdı: əməyin sahibləri olan kapital sahibləri və işçi sinfi olan burjua sinfi. Əmək haqqının azaldılması, pis iş şəraiti və uzun iş saatları işçi sinifində sosial çətinliklərə və sinif münaqişələrinə gətirib çıxardı. XIX əsrdə dövlətin liberal iqtisadiyyat anlayışının yaratdığı sosial problemləri həll etmək üçün sosial siyasət tətbiq edilmişdir.

"Sosial siyasət" məfhumu 1950-ci illərdə Almaniyada meydana çıxmışdır. Bu anlayış alman filosofu Lüdviq fon Ştayn tərəfindən elmə gətirilmişdir. O belə düşünürdü ki, dövlətin sosial siyasəti ölkənin bütün vətəndaşlarının iqtisadi və ictimai tərəqqisinə şərait yaratmalıdır. Onun fikrincə, dövlətin sosial siyasəti bəşəri ləyaqətin təminatçısı kimi çıxış etməlidir.

İlk zamanlar "sosial siyasət" məfhumu yalnız işçi (fəhlə) və sahibkar (kapitalist) arasında mənfəət (gəlir) qarşıdurmasını balanslaşdırmaq və ya aradan qaldırmaq üçün dövlətin gördüyü işləri nəzərdə tutmuşdur. Daha sonra isə əlbəttə ki, ifadə etdiyi məna dəyişməyə başlamışdır. Müasir dövrdə də dövlətin görmüş olduğu işlərdir, lakin geniş mənada.

"Sosial siyasət" anlayışı çağdaş zamanda bir çox mənalarda işlədilir. Ümumilikdə götürsək bu anlayış modern anlamda: bütün insanların, dövlətin bütün vətəndaşlarının hər birinin ayrı-ayrılıqda sağlamlıq, təhsil, məşğulluq və sosial müdafiə və başqa məsələlərin həllinə yönəlmiş bir fəaliyyət başa düşülür.

Cəmiyyətin formalaşması üçün dövlətin sosial fəaliyyəti zəruridir. Buna görə də dövlət baş verə biləcək bütün problemlərin həllində effektiv dərəcədə siyasət yürütməlidir.

Sosial siyasət nəticəsində əhalinin rifah səviyyəsi daha da yaxşılaşmağa başlayır. Belə ki, Türkiyə Statistika Qurumundan verilən məlumata görə, Avropa İttifaqının üzvü olan 28 ölkədə ötən il məşğulluq nisbəti 15, yuxarı yaşdakı əhalidə 53,5 % olaraq müəyyənləşmişdir.

Avropa daxilində 33 ölkə arasında məşğulluq səviyyəsi ən yüksək olan ölkə 80,6 % - lə İslandiya, ən aşağı olan isə 40,9 % - lə Yunanıstan olmuşdur. Türkiyənin ötən ilə dair məşğulluq nisbəti isə yüzdə 47,1 olaraq qeydə alınmışdır.

Yuxarıdakı statistik göstəricilər sosial siyasət nəticəsində əhalinin rifah səviyyəsinin yaxşılaşmasını göstərir.

Vətəndaş cəmiyyətində dövlətin sosial siyasəti həyata keçirilən tədbirlər strategiyasına yönəlmiş olur. Cəmiyyətin sosial və iqtisadi inkişafının

bir prioritet kimi qəbul edilərək onun rifah səviyyəsinin yüksəldilməsi məqsədilə dövlət sosial siyasəti həyata keçirmiş olur.

Sosial siyasət dövlətin daxili siyasətinin aparıcı istiqamətlərindən biri olub onun başlıca tərkib hissəsini təşkil edir. İctimai həyatın sosial sahəsinə həm iqtisadiyyatın qeyri - istehsal sahələri (elm, təhsil, səhiyyə və s.), həm də istehsal sahələrinin bir neçə aspektləri (iş günü müddəti, minimum əmək haqqı, əməyin mühafizəsi və s. ) daxildir.

Sosial siyasətin məqsədi cəmiyyətdəki insanların ehtiyaclarının tam şəkildə təmin olunması, onların həyat vəziyyətinin və səviyyəsinin yaxşılaşdırılmasıdır.

Çağdaş zamanda dövlətin sosial siyasətinin balanslaşdırılması istiqamətində fəaliyyətin genişləndirilməsi vacibliyi aktuallaşmışdır. Bildiyimiz kimi, dövlət bir çox sosial funksiyaları həyata keçirir. Dövlətin sosial inkişafına təkan verib şərait yaradan yeganə amil onun sosial funksiyasıdır. Daha sonra bu funksiyalar onların sosial maraqlarına çevrilmiş olur.

Dövlətin iqtisadi və sosial baxımdan tənzimlənmə mexanizmləri istiqamətində məqsədyönlü fəaliyyət göstərilməsi sosial siyasətin zəruri prinsipləri kimi qarşıya çıxır (R.Rasimoğlu, 2012: s.44).

Sosial sferada dövlətin apardığı islahatlar sosial zəmində qurulur. Belə ki, sosial siyasət dövlətin hər vətəndaşının, hər bir üzvünün işsizlik problemini həll etməyə yönəlmişdir.

Qloballaşma dövründə sosial siyasət prosesi yeni məna kəsb etməyə başlamışdır.Standart proqramlar əsasında sosial siyasət həyata keçirilir. İslahatların aparılması ilə əlaqədar olaraq sosial siyasətlər ölkələrin yoxsulluq əleyhinə mübarizəsini nümayiş etdirir.

Dövlətin sosial fəaliyyətinə bir sıra məsələlər aid edilir. Belə ki, bu məsələlər yalnız insanın yaşayışını yaxşılaşdırmağı nəzərdə tutmur. Həmçinin insanlarda yaxşı sosial keyfiyyətlərin formalaşdırılıb təkmilləşdirilməsini nəzərdə tutur. Sosial keyfiyyətlərə intizamlılıq, dürüstlük, əməksevərlik, ən başlıcası isə vətənpərvərlik aiddir.

Cəmiyyətdəki sosial institutlar – ailə və məktəb sosial siyasətin tənzimlənməsi subyektləri kimi çıxış edir. Elə bu cəhətdən sosial siyasət sosial təhlükəsizliyə və sosial müdafiəyə yönəlmişdir.

Sosial siyasətin reallaşdırılması çərçivəsində insanların lazımi tələbat və ehtiyaclarının təmin olunması, onlara lazımi dərəcədə sosial qayğının göstərilməsinə yönəlmiş fəaliyyətdir.

Sosial siyasət əmək qabiliyyətinə malik olan vətəndaşlar üçün müvafiq şəraitin yaradılması və bununla yanaşı olaraq əmək qabiliyyətini itirmiş vətəndaşların ünvanlı yardım alması imkanını yaradır.

Sosial siyasətin başlıca vəzifələrindən biri ondan ibarətdir ki, hər hansı bir problemin müvəffəqiyyətli şəkildə həll edilməsi üçün dövlətin zəruri qayğı və diqqətinin olmasıdır (Nuriyev A.X, 2017: s.23).

Dövlətin sosial siyasətinin əhalinin rifah səviyyəsinə təsiri dedikdə, sosial siyasət nəticəsində əhalinin rifahının necə dəyişdiyi nəzərdə tutulur. Dövlətin sosial siyasətinin əhalinin rifah səviyyəsinə təsiri aşağıdakılardan ibarətdir:

❖ Gəlirin ədalətli bölgüsü və yoxsulluğun azaldılması:

Dövlətin sosial siyasətinin başlıca məqsədi milli gəlirin ədalətli bölgüsüdür və yoxsulluğun qarşısının alınmasına yönəlmiş addımlardan ibarətdir. Əlbəttə ki, yoxsulluğun qarşısı məhz məşğulluğun təmin olunması ilə alına bilər.

❖ Sosial bərabərlik:

Sosial-iqtisadi inkişafda bərabərlik önəmli məsələlərdən birini təşkil edir. Bərabərlik prinsipinin güclü və qabarıq formada özünü göstərdiyi sosial sahələrin ən başlıcası təhsildir.

❖ Sosial Müdafiə:

Sosial müdafiə gözlənilməz qəza, sağlamlığın itirilməsi, xəstəlik və yaşlılıq kimi amillər nəticəsində dövlətin göstərmiş olduğu sosial siyasətin cəmidir.

❖ Tam məşğulluğun təmin olunması və işsizliklə mübarizə:

Ölkə vətəndaşlarının hər birinin işlə təmin olunması sosial siyasətin başlıca prioritetidir.

Məşğulluğun təmin edilməsində sosial baxımdan irqi, dini ayrı-seçkiliyə yol verilməməsi sağlam mühitdə işləmək üçün imkan yaradır.

❖ İqtisadi inkişafın təmin olunması:

İqtisadi inkişafa təkan verən başlıca cəhət iqtisadiyyatın müxtəlif sahələrinin inkişafı və xarici investisiyaların qoyuluşudur.

Dövlətin sosial siyasətinin nəticəsi ölkənin, iqtisadiyyatın və insanların rifah səviyyəsində özünü göstərir. Deməli, dövlətin sosial siyasəti rifah səviyyəsinə birbaşa təsir göstərir.

Dövlətin mərkəzdə və regionlarda iqtisadi cəhətdən vəziyyəti yaxşılaşdırmaq üçün gördüyü tədbirlər, orta ümumtəhsil məktəblərində təhsilalanların pulsuz kitablar ilə təmin olunması, təqaüd və əmək haqqlarının artırılması, vergilərin tənzimlənməsi və s. kimi məsələlər ilə əlaqədar olan xəbərləri həftənin demək olar ki, bütün günü televiziyada və ya Kütləvi İnformasiya Vasitələrində eşidirik.

Bəs görəsən dövlətin görmüş olduğu sosial siyasət nədir? Bütün bu tədbirlər sosial siyasət hesab olunurmu? Nə üçün bu tədbirlər görülür? kimi suallar meydana çıxır.

Yuxarıdakı suallara cavab vermək məqsədilə qeyd edə bilərik ki, dövlətin gördüyü bu və ya digər bu kimi tədbirlər dövlətin sosial siyasəti adlanır.

Dövlətin sosial siyasətinin rifah səviyyəsinə təsir göstərən amillər aşağıdakılardır:

- ✓ Gəlirin haqlı şəkildə bölüşdürülərək yoxsulluq səviyyəsinin minimuma endirilməsi;
- ✓ Əhalinin sosial müdafiəsinin təşkil olunması;
- ✓ Məşğulluğun tam şəkildə təmin olunması və işsizliklə mübarizə aparılması;

- ✓ Nizam - intizamın və sülhün təmin olunması;
- ✓ İşçilərin müdafiə olunması və s.

Yuxarıda qeyd etdiyimiz amillər içərisində başlıca yeri məhz əhalinin sosial müdafiəsi məsələləri tutur. Sosial müdafiə hər bir ölkə vətəndaşlarının işsizlikdən müdafiə edilməsinə yönəldilən dövlətin sosial siyasətidir. Dövlət tərəfindən atılan addımlar kompleksinin spesifikası işsizliklə mübarizə tədbirləri, yoxsulluğun aradan qaldırılması ilə bağlıdır.

Dövlətin sosial siyasəti ilə cəmiyyətin iqtisadi inkişafı arasında əlaqə düz mütənasibdir. Çünki biri artdıqda digəri də artır. İqtisadi inkişafın məqsəd və vəzifələri birbaşa və dolayı priyomlarla sosial siyasətdə cəmləşir.

Dövlətin sosial siyasəti ölkənin daxili siyasətinin başlıca istiqamətlərindən birini təşkil edir. İctimai həyatın ayrılmaz komponenti məhz dövlətin sosial siyasətidir.

Dövlət tərəfindən həyata keçirilən sosial siyasət onun həyata keçirmiş olduğu tədbirlərdə, imzaladığı proqram və layihələrdə, bir sözlə, praktikada reallaşdırılır. Əhalinin mühüm sosial qruplarının mənafeyi naminə və maraqları vasitəsilə cəmiyyətdə olan münasibətləri balanslaşdırır.

Dövlətin iqtisadi inkişafı ilə dövlətin sosial siyasəti arasında əlaqə dinamik şəkildə mövcuddur. Planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid dövründə əhalinin gəlirləri demək olar ki, qeyri - mütənasiblik təşkil edir. Gəlirin düzgün şəkildə bölünməsinin əsas yolu vergi sistemidir.

Vergi sistemi yolu ilə dövlət əldə etmiş olduğu vergilərin bir hissəsini əhalinin yoxsul təbəqəsi üçün ayırır. Bütün ölkələrdə sosial sığorta və yoxsullara dövlətköməyi proqramı vardır. Sosial sığorta proqramı əhalinin əmək qabiliyyətini itirməsinə, iş yerlərinin azalmasına görə sığortalanmasını əhatə edir.

Çağdaş inteqrasiya mühitində dünyanın ən çox inkişaf etmiş ölkələrin təcrübəsi sübut edir ki, dövlətin sosial siyasəti cəmiyyətin yaşayış indeksini daha yüksəldir. Həyat şəraitinin yaxşılaşdırılması dövlətin sosial siyasəti tənzimləmək üçün həyata keçirmiş olduğu tədbirlər kompleksindən ibarətdir.

Dövlətin sosial siyasəti gəlirlərin düzgün bölüşdürülməməsində, bazar iqtisadiyyatı şəraitində gəlirin zəifləməsində və baş verən ziddiyyətlərin aradan qaldırılmasında öz əksini tapmış olur.

Qloballaşma dövründə sosial siyasətin effektivliyi daha da artırıl - malıdır. Bunun üçün də bir çox sosial sferanın inkişafına nail olmaq üçün problemlərin həll olunaraq aradan qaldıırlmasına səy göstərmək lazımdır. Sosial sfera ilə əlaqədar olan konkret məsələləri həll etmək dövlət hakimiyyət orqanlarının, yerli özünü idarə orqanlarının səlahiyyətlərinə daxil olub iqtisadi inkişaf səviyyəsindən, demoqrafik vəziyyətindən, maliyyə imkanlarından, milli adət və ənənələrdən asılıdır.

Dövlətin sosial siyasəti müəyyən məqsədlərə çatmaq üçün həyata keçirilən təşkilati və maliyyə cəhətdən əsaslandırılmış dövlət fəaliyyətidir. Qabaqcıl ölkələrin təcrübəsi göstərir ki, sosial siyasətin düzgün şəkildə həyata keçirilməsi önəmli hadisələrdəndir.

Dövlət tərəfindən reallaşdırılan sosial siyasət düzgün seçilib həyata keçirildikdə əlbəttə ki, sağlamlıq vəziyyəti yaxşılaşdırılır, yoxsulluq səviyyəsinin aşağı düşməsi halı baş verir, sosial təhlükəsizliyin yaxşılaşdırılmasına nail olunur.

Fikrimcə, sosial siyasət dövlətin və yerli hakimiyyət orqanlarının əhalinin işsizlikdən, inflyasiyadan, süni qiymət artımından və s. bu kimi problemlərdən müdafiə edən kompleks sosial - iqtisadi tədbirlərin məcmusu kimi qiymətləndirilə bilər.

Müasir dövrdə postsosialist ölkələrində sosial sferada aparılan islahatlar tamamilə fərqlidir və dünya standartlarına demək olar ki, yaxındır. Burada əhaliyə sosial və rifah təminatları verən vətəndaş cəmiyyətinin formalaşdırılması və təkmilləşdirilməsi ön planda olmalıdır. Bütün bunlarla yanaşı olaraq, vətəndaşların təhsil almaq hüququnun reallaşdırılması,tibbi xidmətin keyfiyyətinin yaxşılaş dırılması və ölkənin mədəni irsinin qorunması kimi məsələlərə də diqqət yetirmək lazımdır.

Dövlətin sosial siyasəti əlbəttə ki, yuxarıda qeyd edilən tədbirlər kompleksi ilə məhdudlaşmır. Mülki əmək bazarının yaradılması, sosial təminat və müvazinət sferasında daimi olaraq maliyyə dayanıqlığının təmin edilməsi də bu qəbildən olan məsələlərə daxildir.

Sosial siyasət əhalinin rifah halının yaxşılaşdırılması səviyyəsinə də müsbət təsir göstərə bilər. Müasir dövrdə ədalətli, sivilizasiyalı cəmiyyət yüksək sosial standartlara uyğun olaraq mövcud olur. Belə bir cəmiyyətin mövcud olması üçün bir sıra məsələlərin həll olunması olduqca mühüm əhəmiyyət kəsb edir.

Sosial müdafiə sisteminin inkişaf etdirilməsi, əlil vətəndaşların cəmiyyətə inteqrasiya olunması, yaşlıların təqaüd sisteminin daha da təkmilləşdirilməsi, yüksək standartlara cavab verən təhsil sisteminin yaradılması və ən nəhayət əhalinin məşğulluğunun tam şəkildə təmin olunması əsas prioriteti təşkil edir (Səfərov S, 2014: s.13).

Çağdaş zamanda dövlətin sosial siyasətinin müvəffəqiyyətini təmin etmək üçün bir neçə yöndə, məsələn, maliyyə - iqtisadi, sosial - psixoloji və hüquqi -təşkilati məsələləri həll etmək lazımdır. Bazar iqtisadiyyatının təşəkkül tapdığı bir şəraitdə iqtisadi məsələlər, sosial inkişaf ilə əlaqədar olan problemlər önəmli rol oynayır. Bu problemlər ilə əlaqədar olan islahatların nəticələrinin mənfi olmaması üçün ölkənin sosial inkişafının başlıca istiqamətləri və prioritet hədəfləri araşdırılıb öyrənilməlidir (Rəhmanov F.P, 2012: s.38).

Hər bir ölkənin sosial - iqtisadi inkişafının qiymətləndirilməsində nəzərə alınmalı olan amillərdən biri məhz əhalinin sosial rifahı faktorudur. Ümumiyyətlə isə respublikamızda demək olar ki, bütün sahələrdə, həmçinin sosial sferada uğurlu dövlət siyasəti reallaşdırılır. Bütün bunların müsbət nəticə verməsinin başlıca səbəbi məhz islahatların uğurlu şəkildə aparılaraq uğurlu nəticənin əldə olunmasıdır.

Sosial siyasət haqqında müxtəlif aspektlərdən yanaşmalar vardır. Bu elmi baxışlar aşağıda verilmişdir:

Dövlətin apardığı sosial siyasətlə əlaqədar olaraq bir sıra tədqiqatlar mövcuddur. Son zamanlarda sosial siyasətlə bağlı bir sıra tədqiqatlar aparılmışdır (Səfərov S, 2014: s.32). Görkəmli alim P.D.Pavlenka dövlətin sosial siyasətini bütün bəşəriyyətin inkişaf obyekti kimi qiymətləndirmişdir. Onun fikrincə, sosial siyasət insanlar arasında münasibətləri də optimallaşdırır.

İ.Q.Zaynışevin fikirlərinə əsasən, daxili siyasətin ayrılmaz hissəsini məhz dövlətin sosial siyasəti təşkil edir. Onun əsas məqsədi cəmiyyətdə olan bütün sosial məsələlərin həll olunmasıdır.

(Friedmann J, 2006: s.13) Rus professor, alimi M.Lavrenenkoya görə, dövlətin sosial siyasəti bir sıra sosial qurumlarla qarşılıqlı vəhdət prinsipi əsasında fəaliyyət göstərir.

İnkişaf səviyyəsindən asılı olmayaraq dünyanın bütün ölkələrində regionların sosial - iqtisadi baxımdan inkişafı istiqamətində dövlət siyasətinin mühüm komponentlərdən birini sosial siyasət təşkil edir. Sosial siyasətin mahiyyəti sosial qruplara mənsub olan adamlar arasında həyat səviyyəsinin yüksəldilməsi baxımından şəraitin yaradılmasıdır.

İqtisadi inkişaf nöqteyi - nəzərindən sosial siyasət ikili rol oynayır. İqtisadiyyat inkişaf etdikcə, milli gəlir artdıqca əhali üçün yaxşı imkan yaranır, onların sosial müdafiəsi güclənir, başqa tərəfdən isə əhalinin sosial vəziyyəti yüksəldikcə onların əmək məhsuldarlığı da artır.

Dövlətin həyata keçirmiş olduğu sosial siyasət məhz əhalinin yaşayışının yaxşılaşdırılmasına yönəldiyi üçün daxili istehsalın stimullaşdırılması, xoş olmayan, neqativ halların aradan qaldırılması üçün xüsusi şəraitin yaradılması buna misal ola bilər. Xüsusilə isə korrupsiya və rüşvətxorluq kimi hallara qarşı mübarizənin gücləndirilməsi, sahibkarlara qarşı kömək edilməsi, onların fəaliyyəti üçün münbit şəraitin yaradılması və s. bu kimi tədbirlər məqsədyönlü şəkildə davam etdirilir.

# II Fəsil DÖVLƏTİN SOSİAL YÖNÜMLÜ XƏRCLƏRİNİN MALİYYƏ TƏMİNATININ MƏNBƏLƏRİ VƏ BÜDCƏNİN ROLU

## 2.1. Seçilmiş ölkələrdə sosial yönümlü məsələlərin maliyyələşmə mənbələri

Hər bir ölkənin inkişafı onun daxili potensialının yüksəlməsi ilə yanaşı beynəlxalq aləmdə çəkisinin, yerinin, rolunun artmasında da özünü göstərir. İqtisadiyyatın sürətlənməsi onun şaxələnməsinə gətirib çıxarır. Bu da dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. Dünyanın, xüsusilə də Avropanın qabaqcıl ölkələrinin əldə etmiş olduqları təcrübə iqtisadi inkişafı daha da sürətləndirir.

Müəyyən dövrlərdə cəmiyyətdə inkişaf sosial, siyasi, iqtisadi və digər istiqamətlərdə gedə bilir (Needleman L, 2012:s.11). Bu istiqamətlərin birinin digərindən daha sürətlə inkişaf etməsi yeni mərhələ yaradır ki, bu da "keçid dövrü" adlanır.

Seçilmiş ölkə nümunəsi kimi inkişaf etmiş ölkələrdən biri olan Yaponiyada sosial yönümlü məsələlərin maliyyələşmə mənbəyi dövlətin iqtisadi islahatlardan əldə etdiyi gəlirlərdir. Belə ki, Yaponiyada son on ildə yüksək məşğulluq dərəcəsi qeydə alınmışdır.

İşsizlik norması 1970 - ci illərdə cəmi 2 - 2, 8 % təşkil edirdi. XXI əsrin ilk illərində bu göstəricinin səviyyəsi 3 % - i keçə bilmişdir. Bu orta dünya səviyyəsindən 2 - 8 % aşağıdır (Yavilioğlu C, 2002: s.23).

Yaponlar milli gəlirlərinin 12% - ini təhsilə, 7,7% - ini isə hərbi xərclərə ayırırlar. Buna görə də Yaponiya inkişaf etmiş ölkələr sırasındadır. Şərqi Asiyanın bütün ölkələrinin ümumdaxili məhsulunun 70 % - i Yaponiyanın payına düşür.

Yapon sosial yönümlü məsələlərinin bir neçə xüsusiyyətləri vardır ki, ondan bütün dünya ekspertləri və iqtisadçıları maraqla müşahidə edirlər. Misal olaraq, Yaponiya dünyada yeganə ölkədir ki, burada balanslaşdırılmış inkişaf modeli təcrübədə reallaşdırılmışdır.

Hazırda Yaponiya sosialyönümlü problemlərin həllinə çəkilən xərclərin miqdarına görə dünya ölkələri arasında Amerika Birləşmiş Ştatlarından sonra ikinci yeri tutur. Bu çox böyük uğurdur. Bu uğura nail olunmasında Yaponiyanın yalnız spesifik olan sosial islahatı həlledici rol oynamışdır.

Yaponiyanın sosial islahatının gücü ondadır ki, heç bir problemə malik olmayan, bir çox potensiallara malik olan və ən əsası vətənini sevən hüquqi alimlər tərəfindən hazırlanır və reallaşdırılır. Bir qayda olaraq sosial islahatlar innovasiyaya əsaslanır. Bu da onu fərqli edir. Yapon sosial islahatının həyata keçirilməsi, Yapon iqtisadiyyatının inkişafı ilk növbədə, firmaların çevikliyini, istehsalın uyğunluğunu və ən əsası isə iqtisadiyyatın müxtəlif sahələrindən əldə etmiş olduqları sosial və iqtisadi inkişaf və onun ən yüksək səviyyədə inkişaf sürəti bir çox cəhətdən ölkəni fərqli edir.

Aşağıdakı şəkildə Yaponiyada illər üzrə işsizlik səviyyəsinin azalması göstərilmişdir.

**Şəkil 1: İşsizliyin azalma səviyyəsi**




**Mənbə:** İnkişaf etmiş ölkələrin statistik göstəriciləri əsasında müəllif tərəfindən hazırlanmışdır. (12.10.2018)

Yaponiyada sosial yönümlü məsələlərin maliyyə mənbəyindən birini məşğulluq məsələsi təşkil edir. Bu məsələnin həllində Yaponiya kiçik sahibkarlığın inkişafı qayğısına qalmaq üsulundan istifadə edir. Sahibkarlıqda kiçik, orta və böyük müəssisələr fəaliyyət göstərir. Kiçik, lakin sosial baxımdan münasib olan biznesə hərtərəfli qayğı göstərilməsi məşğulluğu təmin edir. Yaponiya əhalisi sahibkarlığa qarşı olduqca maraqlıdırlar.

Yapon iqtisadi və sosial inkişaf modelinin fərqləndirici əlaməti ondan ibarətdir ki, kiçik və böyüklüyündən asılı olmayaraq bütün məsələlərə yaradıcı münasibət bəslənilməsidir. Bu xüsusiyyəti dövlət büdcəsinin formalaşdırılmasında, xərclənməsində və vergi alınmasında görə bilərik. Dövlət büdcəsinin gəlir hissəsinin əsasını birbaşa vergilər təşkil edir. İkinci yerdə isə istehsal dayanır.

Müəssisələrin mənfəətindən olan vergi isə dövlət büdcəsinin 26 % - ni təşkil edir. Bu göstəricilər iqtisadiyyatın möhkəmliyindən, müəssisələrin fəaliyyətindən, əhalinin yüksək məşğulluğundan xəbər verir. Bu ölkə öz əhalisinə ata qayğısı ilə yanaşır.

Yaponiyanın iqtisadiyyatında dövlətin rolu kommersiya fəaliyyəti baxımından minimumdur. İqtisadiyyatın inkişafına təsiri baxımından isə maksimumdur. Yaponiya ölkənin iqtisadiyyatına güclü təsir etməsi ilə başqa ölkələrdən fərqlənir.

Yaponiya hökumətinin iqtisadiyyata təsiri zamanı istifadə etdiyi üsul, yanaşma və tənzimləmə mexanizmlərinin analoqu bütün dünyada belə yoxdur. Güclü iqtisadiyyatı bir neçə göstərici ilə qiymətləndirmək mümkündür. Ən əsas göstəricilərdən biri iqtisadiyyatın ilbəil irəliyə doğru inkişafını səciyyələndirən "Ümumi milli məhsulun orta illik artımı" başlıca göstəricilərdən biridir.

Son 20 il müddətində bu göstərici Amerika Birləşmiş Ştatlarında daha dayanıqlı olmuşdur. Bunu aşağıdakı cədvəldə aydın şəkildə görmək olar:

**Cədvəl 1: Amerika Birləşmiş Ştatlarının iqtisadiyyatını xarakterizə edən bəzi göstəricilər**

| İllər | Ümumimilli məhsulun artım sürəti | İşsizlərin xüsusi çəkisi % | Kapital qoyuluşunun sürəti (-) (+) |
|---|---|---|---|
| **2000** | 8,0 | 7,5 | -3,5 |
| **2004** | 6,7 | 8,3 | +9,7 |
| **2005** | 5,3 | 8,2 | +5,4 |
| **2006** | 6,9 | 5,4 | +6,1 |
| **2007** | 7,5 | 4,9 | +6,5 |
| **2008** | 4,5 | 4,8 | 8,5 |
| **2009** | 7,7 | 8,0 | 9,3 |
| **2010** | 11,5 | 8,5 | 9,5 |
| **2011** | 13,8 | 10,4 | 10,0 |
| **2012** | 14 | 11 | 12 |
| **2013** | 14,3 | 14 | 9,8 |
| **2014** | 13 | 13 | 10,7 |
| **2015** | 12,1 | 4,8 | 12 |
| **2016** | 13,5 | 14 | 12,5 |
| **2017** | 14,7 | 16 | 12,8 |
| **2018** | 15,3 | 17 | 13,9 |

**Mənbə:** Statistik Məlumat Bazası əsasında müəllif tərəfindən hazırlanmışdır. (16.12.2018)

İqtisadiyyatın dayanıqlı olmasını bu göstəricidən başqa işsizlərin xüsusi çəkisi, emal sənayesində və xalq təsərrüfatının digər aparıcı sahələrində istehsal güclərinin yüksəlmə əmsalı, iqtisadiyyata kapital qoyuluşu və onun artım sürəti kimi göstəricilər də xarakterizə edir.

Təcrübəyə sahib olan, savadlı, qabiliyyətli, səriştəli, millətinə xidmət göstərməkdən ruhlanmağı bacara bilən, yüksək mədəniyyətə sahib olan sahibkarlar ordusu formalaşdırmağa nail olan dövlət həmişə güclü olur. Buna görə də digər ölkələri özündən asılı vəziyyətə sala bilər. Amerika Birləşmiş Ştatları belə bir dövlətdir. Ona görə də Amerika digər dövlətlərin iqtisadiyyatına təsir göstərə bilir. Yeni iş yerləri açmaq məhz dövlətin iqtisadiyyata təsiretmə göstəricisidir.

Bunun nəticəsində iqtisadiyyat daha da güclənmiş və işləyənlərin sayı və peşə tərkibi mütərəqqi dəyişikliklərə məruz qalmışdır. Bu gün Amerika Birləşmiş Ştatlarında təxminən 35 milyon işçi ilə təmin edilən iş yeri fəaliyyət göstərir.

İşçilərin tərkibində mütərəqqi dəyişiklik öz əksini zehni əməklə məşğul olanların xüsusi çəkisinin artmasında və fiziki əməklə məşğul olanların xüsusi çəkisinin isə əksinə azalmasında tapır. Bu cəhət bir daha Amerikanın güclü elmi - texniki potensiala və dünya iqtisadiyyatına təsir göstərmək imkanına malik olmasını sübut edir.

Amerikanın sosial yönümlü siyasətindən biri məşğulluq səviyyəsinin yüksək olmasıdır.

**Şəkil 2: Amerikanın məşğulluq səviyyəsi XX əsrdə**




**Mənbə:** Statistik Məlumat Bazası əsasında müəllif tərəfindən hazırlanmışdır.

Aparılan araşdırmalar və əldə olunan məlumatlar əsasında Amerika Birləşmiş ştatlarında XX əsrin 2ci yarısının müxtəlif on illiklərində ölkədə olan məşğulluq və işsizlik qarşılıqlı şəkildə müqayisə olunmuş və yuxarıdakı diaqramda aydın şəkildə göstərilmişdir

**Şəkil 3: Amerikanın  məşğulluq səviyyəsi XXI  əsrdə**




**Mənbə:** Statistik  Məlumat  Bazası  əsasında  müəllif  tərəfindən  hazırlanmışdır.

İtaliyada işsizliyin səviyyəsində ölkənin üç istiqamət üzrə regionları qiymətləndirilir. Belə ki, işsizlik ölkənin şimal və mərkəzi hissəsində azdır. Lakin cənubda isə günü-gündən artmaqdadır. İşsizliyin yüksək səviyyəsi maksimum 12% təşkil edə bilər.

Məşğulların sayında Cənubun payı 30%-dən az, işsizlərin sayında 50%-dən çox, iş axtaranlar arasında 40% təşkil edir.

Amerika dövləti yaratdığı təsərrüfatçılıq sahəsi vasitəsilə yeni iş yerlərinin yaradılmasına da yaradıcı yanaşır. Yeni iş yerləri elm və texnikanın son imkanlarını özündə birləşdirir və belə iş yerlərində fəaliyyt göstərənlərin əmək haqqı səviyyəsinə ciddi yanaşılır.

Amerikada yaşlıların təqaüd təminatı sosial müdafiə sisteminin mühüm sahəsi kimi qəbul olunmuşdur (Friedmann J, 2006: s.20). Bu da təqaüd təminatının mükəmməl və sivil qanunvericilik əsasında həyata keçirilməsini tələb edir.

Hər bir ölkənin təqaüd siyasəti təqaüd sisteminin iki əsas funksiyasının gerçəkləşdirilməsinə yönəldilmişdir.Birinci funksiya sosial funksiyadır - bu, əmək qabiliyyətini itirmiş şəxslərin normal həyat şəraitini təmin etməyi nəzərdə tutur.

İkinci, iqtisadi funksiya olub təqaüd ilə əmək fəaliyyəti arasında asılılığı təmin etməkdir.

Qloballaşma dövründə yoxsulluq ölkələrin ciddi problemidir. Sosial və iqtisadi baxımdan yaranan geniş şaxəli bir problem kimi vətəndaşların yaşayış səviyyəsinin rifah halının qarşısını alır.

Amerikada yuxarıda qeyd olunan sahələrin inkişaf etdirilməsi məqsədilə dövlət tərəfindən görülən işlər öz bəhrəsini vermişdir. Belə ki, yeni iş yerlərinin açılması məhz buna misal ola bilər.

Amerika Səhiyyə sisteminin əsasıdır: öncə pul, sonra xidmət. Amerika Səhiyyəsindəki kritik vəziyyət barədə bir çox ekspertlər danışır. Orada tibbi sığortanın qiyməti il ərzində 5 - 7 min dollar arasında dəyişir.

Səhiyyə təşkilatlarının məlumatına görə, tibbi sığorta olmadan Amerika vətəndaşının ölmək riski 40% artır. Ümumilikdə isə, 45 milyon əmək qabiliyyətli amerikalı sığortasızdır. Amerikanın müxtəlif bölgələrində fəaliyyət göstərən 43 mərkəzdə 3400 - dən artıq xəstə hemodializ seansları və müvafiq dərman vasitələri ilə tam həcmdə pulsuz təmin olunurlar.

Dünya iqtisadiyyatında spesifik yerə mailk olan regionlardan biri Qərbi Avropa adlanan regiondur. Spesifikliyin ilkin əlaməti ondadır ki, bu regionda kiçikli - böyüklü 25 ölkə təmsil olunsa da dünya iqtisadiyyatında Qərbi Avropa çox vaxt vahid bir quruluş kimi göstərilir.

Dünya əhalisinin 7% - ni özündə birləşdirən region dünyada istehsal olunan ümumdaxili məhsulun 23% - ni verir. Fərqləndirici əlamətlərdən biri də Qərbi Avropa ölkələrinin daha sivil qanun və qaydalar ilə əməkdaşlıq etmələridir.

Fransa yüksək inkişaf etmiş dövlətdir. İqtisadi potensialına görə Avropada Almaniyadan sonra üçüncü yerdədir. Fransa iqtisadiyyatının ənənəvi xüsusiyyəti burada təsərrüfatın mühüm sahələrinə nəzarət edən ümumilli proqramlaşdırmanı fəal tətbiq edən iri dövlət sektorunun olmasıdır. Ölkədə iqtisadi inkişafın planlaşdırılması ümumavropa miqyasında strateji səciyyə daşıyır.

Digər inkişaf etmiş ölkələrdən biri də Rusiya Federasiyasıdır. Rusiya Federasiyasının sosial cəhətdən inkişaf faktorunda onun SSRİ - nin varisi

olmasının önəmi böyükdür. Rusiya Federasiyasında bazar iqtisadiyyatının əsasının qoyulması ilə dünyanın təsərrüfatının inkişafına təkan vermişdir.

Rusiya Federasiyanın iqtisadiyyatının inkişafında da təbii ki, xarici amillərin rolu və təsiri olduqca böyükdür. Rusiya Federasiyası dünyada ən böyük əraziyə malik olan ölkədir. Və əlbəttə ki, əhalisi də yetərincədir. Məhz buna görə dünyada altıncı yerdədir. Lakin iqtisadi göstəricilərinə görə isə dünyada beşinci yeri tutur (Rəcəbli H., 2012: s.41).

Rusiya Federasiyasını sosial inkişaf baxımından qiymətləndirmiş olsaq, qeyd edə bilərik ki, Rusiyada məşğul əhalinin sayı 70 % təşkil edir. Lakin bu göstərici ABŞ - da 74 % olduğu halda, Yaponiyada isə 87 % təşkil edir.

**Şəkil 4:Məşğul əhalinin sayı (xarici ölkələrdə faizlə)**




**Mənbə: :** İnkişaf etmiş ölkələrin statistik göstəriciləri əsasında müəllif tərəfindən hazırlanmışdır.

### 2.2. İnkişaf etmiş ölkələrdə sosial yönümlü xərc strategiyalarının müqayisəli təhlili

Sosial - iqtisadi səviyyəsinə görə inkişaf etmiş ölkələri iki qrupa ayırırlar. Bu qrup aşağıdakı kimidir:

**Şəkil 5: İnkişaf etmiş ölkələr qrupu**




**Mənbə:** Müəllif tərəfindən hazırlanmışdır.

İspaniya, Portuqaliya, Yunanıstan və İrlandiya orta inkişaf etmiş ölkələr, qalanları isə yüksək inkişaf etmiş ölkələrə aid edilir. Orta inkişaf etmiş ölkədə adam başına düşən milli gəlir 5 - 10 min, yüksək inkişaf etmiş ölkələrdə isə 17 - 30 min dollar təşkil edir.

İnkişaf etməkdə olan ölkələr daimi olaraq inkişaf etmiş ölkələrin təcrübəsindən bəhrələnirlər. Sosial və iqtisadi baxımdan hər bir ölkənin inkişafı yüksək səviyyədə olmalıdır. Belə ki, bu cür ölkələr sosial strategiyalarını həyata keçirirlər.

"Strategiya" sözü yunanca "sərkərdə mədəniyyəti" deməkdir (Səfərov S., 2014: s.13). Subyektin məqsədinə çatması üçün düşünülmüş planlı fəaliyyət modeli strategiya adlanır. Strategiyanın məzmununa fəaliyyət istiqamətinə uyğun olaraq məntiqi qərarlar toplusu daxildir.

İnkişaf etmiş ölkələr son iqtisadi göstəricilərinə görə dünyanın başqa ölkələrindən olduqca üstün və öndədirlər. Misal üçün, bu cür ölkələrin əhalisinin adambaşına düşən ümumdaxili məhsulun həcmi dünya üzrə adambaşına düşən ümumdaxili məhsulun orta qiymətindən beş dəfə çoxdur.

1990 - cı illərdə inkişaf etmiş ölkələrin dünya iqtisadiyyatındakı mövqeyi daha da yaxşılaşmışdır. Bu iki amilin birincisi, məhsuldar qüvvələrin strukturunda baş vermiş mütərəqqi dəyişikliklərin təsiri nəticəsində, ikincisi, Şərqi Avropa ölkələrinin dünya təsərrüfat sistemindəki xüsusi çəkisinin azalması nəticəsində baş vermişdir.

İnkişaf etmiş ölkələrdə təbiətin mühafizəsi ilə bağlı tədbirlərin səmərəliliyi əhalinin orta ömür müddətinin artması, ətraf mühitin vəziyyətinin yaxşılaşdırılması ilə bağlı beynəlxalq statistik məlumatlarla təsdiq olunur.

Beləliklə, yuxarıda deyilənləri ümumiləşdirərək qeyd etmək olar ki, dövlətin sosial - iqtisadi inkişafı sahəsində dünya təcrübəsinin öyrənilməsinin əhəmiyyəti təkcə bu və ya digər ölkənin sosial yönümlü problemlərinin mahiyyətini daha dərindən başa düşmək deyil, həm də onların həlli qaydalarını mənimsəyərək müasir dövrün tələblər baxımından yerli şəraitdə istifadə etmək imkanlarını da araşdırmaqdan ibarətdir.

Danimarkanın sosial yönümlü inkişafının xərc strategiyasının əsasında innovasiya dayanır. Ölkə innovativ yolla bütün regionlarda iqtisadi inkişafı təşviq etmək məqsədilə bir sıra təşəbbüslər həyata keçirmişdir. Danimarkanın innovativ siyasəti "İnkişaf, Yenilik və Birlik" (Progress, Innovation and Cohesion) adlanır (Hausmann R., 2009: s.77).

Danimarka hökumətinin iqtisadiyyatı canlandırmaq üçün önəm verdiyi məsələlərdən biri də mərkəzi hökumətin bəzi strukturlarının və müxtəlif qurumların regionlara köçürülməsi, beləliklə böyük şəhərlər xaricində regionlarda da yüksək səhiyyə, təhsil, məşğulluq və investisiya xidmətlərinin təmin edilməsidir.

Norveç, Danimarka, ABŞ və İngiltərədə təhsilin keyfiyyətini yaxşı - laşdırmaq məqsədi ilə əlavə təbdirlər görməkdədir. Bu məqsədlə dövlət büdcəsindən ayrılan vəsait artırılmışdır. Növbəti beş ildə bu ölkələr tərəfindən bu sahəyə xərclənəcək ümumi məbləğ təxminən 4,5 milyard Amerika dolları hesabına ölkədə 65 təhsil proqramı icra olunacaq.

Bu xərclər nəticəsində əldə olunan nəticələr aşağıdakılardan ibarətdir:

Təhsil sahəsinə ayrılan xərclər nəticəsində:

- Təhsil sisteminin köklü şəkildə dəyişməsinə nail olunması;
- Hər bir vətəndaşın keyfiyyətli təhsil almasına nail olunması;
- Təhsilalanların bilik, bacarıq və vərdişlərinin artırılmasına nail olunması;
- Geniş dünyagörüşünə malik şəxslərin yetişdirilməsinə nail olunması;
- Elmi yaradıcılığın inkişaf etdirilməsinə nail olunması və s.

Yuxarıda qeyd edilən ölkələrdə səhiyyəyə ayrılan vəsaitlər hesabına əldə olunan nəticələr aşağıdakılardan ibarətdir:

- ✓ Yeni sağlamlıq mərkəzlərinin inşa edilməsinə və təmir edilməsinə başlanılması ilə həm məşğulluğun, həm də səhiyyənin daha da inkişafına nail olunması;
- ✓ Güclü tibbi kadr potensialının artırılmasına nail olunması;
- ✓ Tibb müəssisələrinin ən yeni tibbi avadanlıqlarla təchiz olunması;
- ✓ Səhiyyənin maddi - texniki bazasının möhkəmləndirilməsinə nail olunması;
- ✓ Yoluxucu xəstəliklərə qarşı sanitariya maarifi işinin aparılmasına nail olunması və s.

Sosial təminata ayrılan vəsaitlər hesabına əldə olunan nəticələr aşağıdakılardan ibarətdir:

- Əhaliyə müavinətlərin ödənilməsi ilə onların rifah səviyyəsinin daha da yaxşılaşdırılmasına nail olunması;
- Əhaliyə doğuma və əmək qabiliyyətinin itirilməsinə görə müavinətlərin ödənilməsi ilə sosial təminatın həyata keçirilməsinə nail olunması;
- Əhaliyə pensiyaların verilməsinin daha da artırılması ilə rifahın yüksəldilməsinə nail olunması;

- Əmək haqqının artırılması ilə yanaşı olaraq əhaliyə əlavə kompensasiya verilməsinə nail olunması və s.

Ötən illərdə Almaniyada regionların sosial yönümlü icrasına istiqamət - lənən investisiyaların həcmi 6,8 milyard manat təşkil etmiş, yalnız 2018 - ci ildə bu məqsədlə 2 milyard manat vəsait xərclənmişdir. İqtisadiyyatın şaxələn- dirilməsi və qeyri - neft sektorunun inkişafı istiqamətində həyata keçirilmiş əməli tədbirlər nəticəsində qeyri - neft sektoruna qoyulan investisiyalar 5 ildə 6,2 dəfə artmış, onun xüsusi çəkisi 2013 - cü ildəki 26,8 faizdən 2018 - ci ildə 69 faizə yüksəlmişdir.

Sosial - iqtisadi inkişafına istiqamətlənən yeni dövrün tələblərinə cavab verən infrastrukturun yaradılması yolu ilə insan resurslarının inkişafıdır. Hər bir vətəndaşın firavan həyat səviyyəsini təmin etməyi ali məqsəd kimi qarşıya qoyan inkişaf etmiş ölkələr fəaliyyətini yalnız sosial müdafiə tədbirləri ilə məhdudlaşdırmır, bütün sahələrdə kompleks islahatların aparılmasına, o cümlədən infrastruktur layihələrinin gerçəkləşdirilməsinə xüsusi diqqət yetirir.

Almaniyada səhiyyə xidmətinin keyfiyyətinin yüksəldilməsi və idmanın inkişafı məqsədilə 16 yeni xəstəxana, 42 ambulatoriya - poliklinika, 42 özəl tibb müəssisəsi, 8 diaqnostika mərkəzi, 19 feldşer məntəqəsi, 18 olimpiya - idman kompleksi tikilib istifadəyə verilmişdir. 15 olimpiya - idman kompleksinin və 9 diaqnostika mərkəzinin tikintisi davam etdirilir (Rəhmanov F.P., 2012: s.81).

Almaniyanın sosial yönümlü xərc siyasəti məhz səhiyyə ilə əlaqədardır. Alman əhalisinin böyük hissəsi dövlət tibbi sığorta şirkətləri tərəfindən sığortalanıb. Ölkədə tibb sığortası bütün əmək qabiliyyətli əhali üçün məcburidir. Sığorta haqlarının ölçüləri sığortaya məruz qalanının ümumi sağlamlığının vəziyyətindən, cinsiyyətindən və yaşından asılı olaraq dəyişir.

Bir çox Qərbi Avropa dövlətləri özəl təhsili tam qəti şəkildə məhdudlaşdırmasalar da, Norveç və İsveç kimi dövlətlər əsasən dövlət təhsilinin inkişafına əhəmiyyətli dərəcədə istiqamətlənirlər. Orada şagirdlərin cəmi 1 - 2% - i özəl məktəblərdə oxuyurlar. Bu özəl məktəblər dövlətin ciddi nəzarətindədir.

Amerika Birləşmiş Ştatlarında əvvəllər uşaqların yaxınlıqda yerləşən məktəblərə verilməsi üstünlük təşkil etsə də, hazırda məktəbin yerinin və tipinin seçimi valideynlərdən asılıdır. Bundan əlavə, ailənin özəl məktəblərdə təhsil xərclərinin azaldılması məqsədilə Amerika hökuməti xüsusilə, yüksək gəlirə sahib olmayanlar üçün ixtisaslaşdırılmış istiqrazlar buraxır.

Başqa ölkələrdə də belə təcrübə mövcuddur. Həmçinin, təhsilin inkişaf istiqamətlərinin işlənib hazırlanması, planlaşdırma və s. ilə bağlı məsələlər də dövlət siyasəti sahəsinə daxildir. Burada ciddi problemlərdən biri odur ki, müasir şəraitdə təhsil sahəsində milli siyaşətin işlənib hazırlanmasına ayrılan vaxt əhəmiyyətli şəkildə məhdudlaşır.

N.Stromkvist və K.Monkmanm qeyd etdiyi kimi, əgər əvvəllər bu dövr 4 - 5 illə ölçülürdüsə, indi təhsil sahəsindəki proqramlar meydana gəlir və 11-12 aydan sonra "ölür". Bununla əlaqədar olaraq, dövlətlər qarşısmda beşillik müddətə hesablanan "strateji planlaşdırmadan" baş verən dəyişikliklərə - "daimi çevik reaksiyaya" keçmək vəzifəsi durur.

Bir çox dövlətlərdə təhsil sahəsində siyasət şəxsiyyətin öz biliyini inkişaf etdirməsinin genişlənməsinə, müxtəlif həyat şəraitlərinə insanın adekvat oriyentasiyasını təmin edən dünyanın mənzərəsinin formalaşmasına istiqamət - lənmişdir. Təhsilin planlaşdırılması zamanı bir çox ölkələr bütün həyat boyu onun fasiləsizliyinə daha böyük diqqət yetirirlər.

Təhsil siyasətinin müəyyənləşdirilməsi dövlətin mühüm vəzifələri ilə şərtlənir. Bu vəzifə, özündə təkcə bu və ya digər fənnə dair biliklərin cəmini deyil, ümumilikdə təhsilə maraq oyatmağa istiqamətlənmiş belə desək, "həvəsləndirici" dərsliklərin yaradılması ilə təhsilə həvəsin artırılmasıdır.

Avropada Boloniya prosesinin inkişafı təhsilin əsasən regionlarda desentralizasiya edildiyi başqa dövlətlərdə (xüsusilə, Amerika Birləşmiş Ştatlarında) təhsil məkanının birləşdirilməsi ilə bağlı məsələlərin qoyuluşunu stimullaşdırdı. Bu, Avropa təhsil sisteminin dünyanm digər ölkələrinin və regionlarınm təhsil sistemlərinin, ali və orta təhsil sistemlərinin, eləcə də təşkilatlarm tələblərinin və normaların toqquşmasına səbəb olacaq.

Həyata keçirilmiş tədbirlərin mahiyyəti və konseptual məzmunu iqtisadiyyatın liberallaşdırılması və sərbəst bazar prinsiplərinin dərinləşdirilməsindən ibarət olmuş, nəticədə sahibkarların ümumi daxili məhsuldakı xüsusi çəkisi 85 % - ə çatmışdır. Dövlət büdcəsindən sahibkarlığın inkişafına ayrılan vəsaitin həcmi ilbəil artırılmış, 7 min investisiya layihəsinə 324 milyon manat kredit verilmişdir. Bu layihələrin 87 % - i, kreditlərin isə 70 % - i regionların payına düşür.

Hazırda aqrar sektor, sənaye, ticarət, mehmanxana və iaşə xidməti, tikinti, nəqliyyat, rabitə kimi istehsal və xidmət sahələrində qeyri - dövlət bölməsinin payı 70 - 99 % arasında dəyişir. Sahibkarlar yeni iş yerlərinin açılması prosesində, habelə büdcə gəlirlərinin yarıdan çoxunun formalaşmasında yaxından iştirak edirlər.

Təcrübə göstərir ki, bazar iqtisadiyyatı seçmiş bir çox dövlətdə sosial müdafiə məsələlərinə xüsusi diqqət yetirilmir. İnkişaf etmiş dövlətlərin bir çoxunda təhsil, səhiyyə və digər sahələr dövlət büdcəsi hesabına maliyyələşmir. Eyni zamanda dövlət əhalinin sosial problemlərini əsas götürərək milyardlarla dollar tələb edən infrastruktur layihələrini dəstəkləmir.

İnkişaf etmiş ölkələrin sosial inkişaf yönümlü xərc siyasəti aşağıdakı cədvəl vasitəsilə verilmişdir.

**Cədvəl 2: İnkişaf etmiş ölkələrin sosial inkişaf yönümlü xərc siyasəti**

| Dövlət büdcəsinin xərcləri | 2018 |
|---|---|
| **Təhsil** | 2021,1 |
| **Büdcə xərclərində yeri (%-lə)** | 10 |
| **Səhiyyə** | 940 |
| **Büdcə xərclərində yeri (%-lə)** | 5 |
| **Sosial müdafiə və sosial təminat** | 3500 |
| **Büdcə xərclərində yeri (%-lə)** | 15 |
| **Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi** | 729 |
| **Büdcə xərclərində yeri (%-lə)** | 6 |

**Mənbə:** İnkişaf etmiş ölkələrin statistik göstəriciləri əsasında müəllif tərəfindən hazırlanmışdır. (21.10.2018)

Yuxarıdakı cədvəldən də göründüyü kimi, hər bir inkişaf etmiş ölkə sosial siyasətini məhz təhsil, səhiyyə və sosial təminat üzrə aparır. Belə ki,

bu sahələrin inkişafı birbaşa olaraq iqtisadiyyatın inkişafına təsir göstərir. Bu sahələrin inkişaf etməsi üçün ayrılan vəsaitlər nəticəsində inkişafa nail olunmuşdur. Ən çox vəsait ayrılan sahə isə təhsildir. Bunun əsas səbəbi isə ölkədəki rifahı yüksəltmək, avamlığı, cahilliyi aradan qaldırmaqdır.

İnkişaf etmiş ölkələrin təhsilə çəkilən xərclərinin göstəricisini xüsusilə qeyd etmək olar. Təhsilə çəkilən xərclərin qiymətləndirilməsi üçün aşağıdakı göstəricilər xüsusi şəkildə nəzərə alınmalıdır:

- ✓ Təhsilə çəkilən cari xərclərin təhsilin pillələri üzrə bölgüsü;
- ✓ Təhsil pillələri üzrə bir nəfər təhsil alana (tələbəyə) düşən cari xərclər;
- ✓ Bir nəfər təhsil alana (tələbəyə) düşən cari xərclərin adambaşına ümumi milli gəlir göstəricisinə nisbəti;
- ✓ Təhsilə çəkilən ümumi xərclərin ümumi milli gəlirə nisbəti;
- ✓ Təhsil üzrə cari xərclərin ümumi təhsil xərclərində xüsusi çəkisi;
- ✓ Ayrı - ayrı maliyyə mənbələri üzrə təhsilə çəkilən xərclərin ümumi təhsil xərclərində xüsusi çəkisi.

### 2.3. Sosial yönümlü inkişafda dövlət büdcəsinin rolu

Dövlət büdcəsi dövlətin maddi təminatının yeganə amilidir. Dövlət büdcəsi dövlətin idarə edilməsində əsas və yeganə şərtdir. Dövlət büdcəsini formalaşdırmaq, artırmaq üçün dövlət daim işlər görür və islahatlar, vergi siyasəti aparır.

2020-ci ilədək dövlət büdcəsinin gəlir hissəsi 21,129 milyard manat məbləğində proqnozlaşdırılır, sosial yönlü xərclərin isə 15 milyard manatdan çox olacağı gözlənilir. 2018-ci ildə büdcənin əsas xərcləmə istiqamətləri sənaye, tikinti, səhiyyə, təhsil və mineral ehtiyatlar sahələridir. Başqa sözlə, dövlət kapital qoyuluşu üçün 5,2 milyard manat, müdafiə üçün 3,1 milyard manat, sosial müdafiə və sosial təminat üçün 2,7 milyard manat, təhsilə 4 milyard manat vəsait ayrılmışdır.

Gələn il minimum əmək haqqı 150 manatadək artırılacaq. İqtisadçıların fikrincə, 2017-ci ilin uğuru 2018-ci il dövlət büdcəsində də öz əksini tapmışdır.

İlk növbədə, 2017-ci il Azərbaycan dövləti üçün uğurlu olduğunu düşünürəm. Azərbaycan hətta risklərin artdığı bir dövrdə də heç bir sosial proqramın maliyyələşdirilməsini dayandırmamışdır.

Büdcə proqnozları neft qiymətləri bazasında 45 dollar / barel səviyyəsində formalaşır. Qara qızılın qiyməti hazırda yüksək olsa da, hökumət riskləri minimuma endirmək üçün daha aşağı bir rəqəmə əsaslanır. İki ay ərzində Hökumət Azərbaycan Respublikasının adından borc və təminat prosedurları layihəsini hazırlayıb Prezidentə təqdim edəcəkdir.

Dövlət büdcəsi təxmin edilən dövlət xərcləri və gözlənilən hökumət daxilolmaları və ya gələcək maliyyə ili üçün gəlirləri əks etdirən illik maliyyə hesabatdır.

Dövlət büdcəsi ölkənin sosial-iqtisadi inkişafında mühüm rol onayır. Sosial inkişafın möhkəmləndirilməsi tədbirləri onun sosial siyasətinin bir parçasını təşkil edir. Sosial yönlü inkişafda dövlətin maliyyələşdirmə siyasətinin balanslaşdırılması zəruridir.

İndiki dövrdə sosial baxımdan inkişafa dövlət qayğısı güclüdür. Bu müəyyən prinsiplər əsasında həyata keçirilir. Bu prinsiplər aşağıdakılardır:

- Ölkə vətəndaşlarına ödənişsiz, lakin yüksək xidmət göstərmək;
- Dövlət vəsaiti ilə və ya büdcədənkənar daxilolmalar nəticəsində inkişafa nail olmaq;
- Dünyanın inkişaf etmiş ölkələrində olduğu kimi inkişafı təmin etmək və elmi-texniki tərəqqinin təsir imkanlarından yararlanmaq və s.

Sosial yönlü inkişafa dövlət büdcəsindən ayrılan vəsait ümumi büdcənin 80%-ni təşkil edir. Bu göstərici dayanmadan, ildən-ilə artır. Azərbaycanda səhiyyənin inkişafı son 5 ildə daha yaxşı səviyyəyə çatmışdır. Statistik göstəricilər bunu deməyə əsas verir ki, səhiyyənin inkişafı dünya ölkələri arasında 132-ci sıradan 89-cu sıraya qədər inkişaf etmişdir.

Dünyanın qabaqcıl ölkələrində olduğu kimi, səhiyyə bir meyar əsasında inkişaf etmir. Onun inkişafına kompleks amillər bütünlüklə təsir göstərirlər. Bunlara aşağıdakılar aiddir:

- Həkimlərin savadlılıq göstəriciləri;
- Həkimlərin vicdanla fəaliyyət göstərmələri;
- Tibbi avadanlıqların işləkliyi;
- Müasir tibbi avadanlıqların olması zəruriliyi;
- Müasir tibbi avadanlıqlarla işləməyi bacaran mütəxəssislərin olması və s.

Sosial tələbat məhz dövlətin xərcləri ilə birbaşa əlaqədardır. Dövlət büdcəsinin xərcləri bir sıra qruplara bölünür. Bunu diaqramda faiz göstəriciləri ilə birlikdə aydın görə bilərik:

**Şəkil 6: Dövlət büdcəsinin xərclərinin əsas qrupları**




**Mənbə:** Statistik Məlumat Bazası əsasında müəllif tərəfindən hazırlanmışdır. (08.04.2019)

İqtisadi baxımdan sabitliyin gücləndirilməsində vergi siyasəti əsas meyardır. Məhz bunun sayəsində iqtisadi inkişaf sürətlənir, əhalinin sosial rifah halı yaxşılaşır və büdcə kəsiri minimuma enir.

Maliyyə siyasəti ölkə iqtisadiyatında əsas yerlərdən birini tutur. Ölkənin sosial və iqtisadi baxımdan inkişafı vətəndaşların təlabatının ödənilməsi və sosial rifahının yaxşılaşdırılması kimi bir sıra məsələlərin həllində özünü göstərir. Burada dövlət büdcəsinin gəlirlərinin düzgün idarə edilib bölüşdürülməsi olduqca zəruridir. Burada dövlətin himayəçilik siyasətinin formalaşması prosesi baş verir.

Dövlət maliyyə imkanlarını səfərbər edərək sosial siyasətlə bağlı məqsədlərini həyata keçirir. Dövlət maliyyə vəsaitlərini balanslaşdırılmış formada istifadə edərək sosial siyasətlə bağlı islahatlar yönündə addım atır.

Dövlətin maliyyə siyasəti onun gələcək perspektivlərini müəyyən edir. Ölkənin sosial siyasət perspektivləri effektli mexanizm üzərində qurulur. Maliyyə siyasətinin bir çox prinsipləri vardır. Onun başlıca prinsipləri sosial və iqtisadi infrastrukturun dinamikasını təşkil edir.

Kapitalist ölkələrində işçilərin əmək haqları dövlət büdcəsindən keçir. Büdcənin inkişafı kapitalist istehsalın elementar qanunlarına tabedir. Burjua dövlətinin funksiyalarına uyğun olaraq dövlət büdcəsinin əhəmiyyətli bir hissəsi qeyri-məhsuldar məqsədlər üçün istifadə olunur.

Müasir imperialist dövlətlərin dövlət büdcələri dövlət inhisarçı kapitalizminin mahiyyətinə diqqət yetirir. Burjua dövlətinin iqtisadiyyatda və milli gəlirin istehsalı, bölüşdürülməsi və yenidən bölüşdürülməsi proseslərində birbaşa müdaxiləsi dövlət büdcəsinin rolu ilə bağlıdır. Dövlətin əlində olan və büdcə vasitəsilə yenidən bölüşdürülmüş milli gəlirin nisbəti artır.

Beləliklə, XX əsrin əvvəllərində inkişaf etmiş kapitalist ölkələrin (ABŞ, Böyük Britaniya, Almaniya Federal Respublikası, Fransa) milli gəlirlərinin 5-10 faizi öz büdcələrində yığılmışdı. Bir sıra ölkələrdə əsas kapitala qoyulan bütün investisiyaların üçdə bir hissəsinin bir hissəsi dövlət büdcəsi vasitəsilə birbaşa və ya dolayı maliyyələşdirilir.

Kapitalist dövlətlərin büdcələrinin əsas mənbəyi vergidir: vergilər bütün büdcə daxilolmalarının 85-95 faizini təşkil edir və əsasən sənaye və ofis işçiləri, kəndlilər (fermerlər) və kiçik burjuaziyaya düşür.

Beləliklə, 1967-ci ildə Fransanın dövlət büdcəsində büdcə gəlirlərinin 92,2 faizi, Qərbi Almaniyada və ABŞ-da büdcə gəlirlərinin təqribən 95 faizi, Böyük Britaniyada isə 91,2 faiz təşkil etmişdir. Azərbaycanda isə bu göstərici 95 faiz təşkil edir.

Burjua dövlətinin iqtisadiyyata müdaxiləsi və tənzimlənməsi ilə bağlı xərclər, büdcə xərcləri arasında əhəmiyyətli bir məsələdir. II Dünya Müharibəsindən bəri iqtisadiyyatın dövlət maliyyələşdirilməsi bir sıra inkişaf etmiş kapitalist ölkələrdə geniş inkişaf etmişdir. Dövlət müəssisələrinin tikintisinə və milliləşdirilmiş müəssisələrin köhnə sahiblərinə kompensasiya ödənilməsinə aid böyük xərclər var. Məsələn, Böyük Britaniyada bu ödənişlər müxtəlif illərdə 120-200 milyon funt sterlinqə, Fransada isə 200 milyon frankdan çoxdur.

Birbaşa kapital qoyuluşu Fransa dövlətinin kapital qoyuluşlarının ümumi həcminin 50 faizini təşkil edir, Qərbi Almaniyada bu göstərici 30-40 faiz, İtaliyada isə 60 faiz təşkil edir.

İnfrastrukturun büdcə xərcləri artmaqdadır: yolların, körpülərin, limanların, qaz kəmərlərinin, təhsil müəssisələrinin, ictimai səhiyyə müəssisələrinin və çoxlu sərmayəni istehlak edən və aşağı mənfəət dərəcələrinə malik olan digər strukturların inhisarçılığı üçün dezavantajlıdır. Altyapı üçün xərclərin böyük hissəsi yerli büdcələrdən maliyyələşdirilir.

Elmi-texniki inqilab kontekstində elmi tədqiqatların xərcləri artır: ABŞ-da xərclər 1954-cü ildə 5,7 milyard dollardan 1967-ci ildə 24 milyard dollara, bu xərclərin 70 faizini dövlət büdcəsi ilə əhatə etmişdir. Qərbi Almaniyada bu xərclər təxminən 1958-1967 illəri arasında təxminən altı faktorla artıb, onların yarıdan çoxu dövlət büdcəsi ilə ödənilir; Fransada dövlət büdcəsi bu xərclərin üçdə ikisini əhatə edir. Böyük məbləğlər ixracatın təşviq edilməsi və xarici ölkələrə kredit verilməsi kimi məqsədlərə yönəlib. Dövlət büdcəsinin əhəmiyyətli məbləğləri dövlət orqanlarını, o cümlədən vəzifəli şəxsləri, polisləri və məhkəmələri saxlamaq üçün xərclənir. İctimai və mədəni ehtiyaclar (təhsil, ictimai səhiyyə və sosial sığorta) xərcləri nisbətən azdır; onlar kapitalist müəssisələr üçün ixtisaslı

mütəxəssislərin hazırlanması və əhalinin iş qabiliyyətinin qorunması ilə əlaqələndirilir.

İndiki dövrdə AR-də iqtisadiyyatın potensialını artırmaq üçün təkmil - ləşdirmə işləri aparılır. Belə ki, inflyasiyanın səviyyəsinin müəyyən edilməsi və proqnozlaşdırılması aktual problemlərdəndir.

Son bir neçə ildə respublikamızda formalaşan maliyyə ehtiyatları dövlət gəlirlərinin tarazlaşdırılmasında mühüm rol oynayır. Dövlətin maliyyə ehtiyatlarının dövlətin büdcəsi qədər rolu və önəmi böyükdür. Dövlətin büdcəsi sosial və iqtisadi mahiyyət daşıyır.

Dövlətin intevstisiya və maliyyə mənbəyi struktur baxımından yenilik tələb edir. Bu yenilik islahat nəticəsində əldə olunur.

Vətəndaşların sosial rifahının həm cari, həm də perspektiv xərcləri mövcuddur. Sosial baxımdan xərclər kommersiya fəaliyyəti ilə qarşılıqlı əlaqədədir.

# III Fəsil AZƏRBAYCAN RESPUBLİKASINDA SOSİAL YÖNÜMLÜ XƏRCLƏRİN TƏNZİMLƏNMƏSİNDƏ MALİYYƏ TƏMİNATININ ARTIRILMASI YOLLARI

## 3.1. Azərbaycanda sosial yönümlü xərclərin tənzimlənməsində maliyyə təminatının təkmilləşdirilməsi istiqamətləri

Azərbaycan Respublikasında iqtisadi inkişafın mühüm amili sosial islahatların effektli təşkili və həyata keçirilməsidir. Respublikamızda sosial yönümlü islahatların səbəblərinə − cəmiyyətin quruluşunun dəyişilməsi, əmək bazarının formalaşması, demoqrafik vəziyyətin ağırlaşması və əmək haqqı, pensiya təminatı ilə bağlı məsələlər aiddir.

Müasir dövrdə qloballaşmanın təsiri ilə iqtisadiyyatlar müxtəlif yöndən inkişaf edir. Belə ki, sosiallaşma, inteqrasiya, sosial-iqtisadi inkişaf bir sistem təşkil edir. Cəmiyyətdə əhalinin sosial müdafiəsi, məşğulluğu, iqtisadiyyatın qeyri-neft sektorundan əldə edilmiş gəlirin indeksləşdirilməsi və nəhayət, əhali arasında düzgün və bərabər bölüşdürülməsi sosial inkişafa təkan verir. Bu da sağlam rəqabət mühitini gücləndirir. Burada islahatlar zəruri amildir. Sosial sferada islahatlar inkişafın perspektiv və prioritetlərini müəyyən edir.

Əhalinin sosial müdafiəsi məsələlərində sosial sığorta meyar kimi önəmli yerə malikdir. Sosial sığortanın da təkmilləşdirilməsi mütləq şəkildə həyata keçirilməlidir.

- Sosial sığorta haqlarının artırılması ilə əmək mühitinin ağırlıq dərəcəsi qiymətləndirilir;
- Vətəndaşların gəlirləri hesabına könüllü sığorta təşkil olunur və s.

Sosial sığorta ilə bağlı məsələlər sosial münasibətlər ilə də uyğunluq təşkil edir. Çünki sosial təminat ilə bağlı problem müasir dövrdə kəskin şəkildə aktuallıq kəsb edir.

İndi dünyanın qabaqcıl ölkələrində qlobal məsələlərin həlli sistemində birinci yeri sosial müdafiə tutur. Sosial müdafiədə ciddi dəyişikliklər olunması ön plandadır. Sosial müdafiədə ictimai inkişaf, qloballaşma, demoqrafik

göstəricilər və sistemli inkişaf paradiqmaları nəzərə alınır. Sosial müdafiə sistemi ilə bağlı olaraq bir sıra təkliflər hazırlanır və islahatlar həyata keçirilir.

Ölkə başçısı İlham Heydər oğlu Əliyev dəfələrlə qeyd etmişdir ki, sosial siyasətlə əlaqədar olaraq icra edilən proqramlar, normativ-hüquqi aktlar sosial sferanın inkişafına səbəb olur. Ölkə iqtisadiyyatından əldə olunan gəlir azalsa da sosial sfera proqramları mütləq olaraq reallaşdırılır. Bu prezidentimizin siyasətinin göstəricisidir.

Respublika prezidentinin siyasətinin mərkəzində Azərbaycan Respublika - sının vətəndaşı durur. Neftin qiymətinin son illərdə kəskin şəkildə ucuzlaşmasına baxmayaraq proqramlar vaxtı-vaxtında icra olunur.

Vətəndaşlar sosial sahə ilə bağlı onları narahat edən məsələləri daim dilə gətirirlər. Ölkə başçısı da lazımi infrastrukturun yaradılması üçün göstərişlər verir və addımlar atılır (Qurbanova T.H., 2011:s.130).

Axır zamanlarda imzalanan sərəncamlar, qəbul edilən proqramlar sayəsində xalqımızın sosial rifahı üçün müsbət dəyişikliklərə nail olunmuşdur. Məsələn, tələbələrin təqaüd məsələləri, ictimai nəqliyyat ilə bağlı məsələlər, məhkumların əfv sərəncamının imzalanması və s. başqa sosial məsələlər.

Yuxarıda qeyd olunanlar bir daha sübut edir ki, cənab prezidentimizin qərarları bir çox sahədəki özbaşınalıqların qarşısını alır. Buna misal olaraq süni qiymət artımının qarşısının alınmasını göstərmək olar. Təbii ki, bu qərar da əhalini düşünərək verilmiş bir qərar idi. Qərarları yerində və düşünülmüş olduğundan sosial inkişafa gətirib çıxarır.

Ölkədə baş verən inkişaf ən çox sosial müdafiə sistemində, ümumiyyətlə isə sosial siyasət ilə bağlı məsələlərdə nəzərə çarpır. Hər bir inkişafın təməlində islahatlar vardır. Dünya təcrübəsinə görə, sosial siyasətə, xüsusilə isəə sosial müdafiə ilə bağlı məsələlərə büdcədən böyük həcmdə vəsait ayrılmışdır. Bu ölkəmizdə də mövcuddur.

Artıq 16 ildir ki, davamlı inkişaf həyata keçirilir. Əvvəlki illərlə müqayisə edəsi olsaq görərik ki, iqtisadiyyatımızda inkişaf son 5 ilə görə, 4,5 dəfə baş vermişdir.

Yuxarıda deyilənlərdən aydın olur ki, bu gün Azərbaycan Respublikası özünün müasirləşmə dövrünü yaşayır. Ölkəmizin sosial və iqtisadi potensialı bir sıra layihələrin icrasını və proqramların tətbiqini sürətləndirir (Quliyev C.B., 2013: s.92).

Dünya ölkələri ilə inteqrasiya demokratik yolda ardıcıl inkişafa səbəb olur. Ümummilli lider H.Əliyev tərəfindən zəruri islahatların aparılmasını xüsusi diqqət mərkəzində saxlamışdır. Bu baxımdan kompleks tədbirlər həyata keçirilmişdir.

Ölkə başçısının sözlərinə görə, sosial siyasətdə başlıca prinsip əvvəlcə regionlarda sosial problemləri müəyyən etmək, həlli yollarını axtarıb tapmaq, tədbirlər planı hazırlamaq, proqram qəbul etmək və onları gerçəkləşdirməkdir.

